www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 sentyabr 2014-cü il Çərşənbə axşamı № 219 (5928) Qiymәti 40 qəpik

**Xəbər**

## Dini Komitə ilə QMİ arasında "ehsan qalmaqalı" gedir

yazısı səh.10-da

**Gündəm**

### Redaktorlar Prezident Administrasiyasındakı görüşdən hansı nəticəni çıxardılar?



**Rauf Arifoğlu:** "Diqqətli olacağıq; çünki bilirik ki, bizim ciddi səhv etmək lüksümüz yoxdur"

yazısı səh.3-də

### Azərbaycanın adını səhv yazdılar - Bakını bürüyən qüsur

yazısı səh.4-də

### Türkiyə prezidenti bu gün Azərbaycana gəlir

yazısı səh.9-da

### Putinin Qazaxıstanla bağlı dediklərinə tarixçi-alimdən ilginc cavab

yazısı səh.6-da

### 20 milyon kilometri əhatə edən birlik

Türkiyə-Azərbaycan-Gürcüstan Gömrük Birliyinin yaradılması təklif olunur

yazısı səh.13-də

### Rusiya Ukraynaya 20 min canlı qüvvə yeridib

Luqansk aeroportu uğrunda ağır döyüşlər gedir; hər iki tərəfdən tələfat var

yazısı səh.8-də

### QHT-lər müxalifətə pul veribmi; prezidentin ittihamına reaksiyalar gəldi

yazısı səh.5-də

### Müsavat qurultay üçün yenidən meriyaya müraciət edəcək

yazısı səh.2-də

### "Ebola" virusu dünyanı təhdid edir

yazısı səh.15-də

### İnterpol Hüseyn Abdullayevin axtarışını dayandırıb

yazısı səh.2-də

### Tələbələr ev axtarışında, qiymətlər isə ceyran belində...

Fantastik təhsil haqqı və bahalı kirayə bir çox gəncin arzusunu gözündə qoyur

yazısı səh.14-də

## "Toy oliqarxları"na böyük zərbə hazırlanır

# ŞADLIQ EVLƏRİ BAĞLANIR - ŞOK TƏFSİLAT

Dövlət yas mərasimlərinin tənzimlənməsindən sonra toy biznes sektorundakı xaotik vəziyyəti də qaydaya salmağı nəzərdə tutur; bunun üçün xüsusi qanun layihəsi hazırlanır; həyata keçirilən həbslərin fonunda bir sıra populist islahatlara da start verilir...




yazısı səh.4-də

## Ərdoğanın Ermənistan dilemması - İrəvana gedəcəkmi...

Ermənistana dəvət məsələsi ilə indi top Türkiyənin meydanına atılıb; oradan kimə və nə vaxt ötürüləcək, yeni prezidentin "yubiley" "Qala qurması" iki qardaş ölkə adına uğurlu olacaqmı?..

yazısı səh.9-da



### Sərdar Cəlaloğlu Babəki və Koroğlunu düşmən, Füzulini kafir çıxartdı

yazısı səh.12-də



### Əflatun Amaşov Ramil Usubova müraciət etdi

yazısı səh.2-də



*Vəfa Quluzadə:*

### "Azərbaycan Ermənistanla müharibəyə tam hazırdır"

yazısı səh.10-da

# 2 sentyabr 2014



**Müsavat Partiyasının başqanı İsa Qəmbər Arif Əzizzadəni 60 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Arif bəy!**

**Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.**

**Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. AXC Nərimanov rayon təşkilatının NTK-nın üzvü kimi məsul işin icraçısı olmusunuz. 1998-ci ildən Müsavat Partiyasının üzvü olaraq, partiya quruculuğunda müsavatçılıq ideyalarının təbliğində və yayılmasında yorulmadan fəaliyyət göstərmisiniz. Siz partiyanın Binəqədi rayon təşkilatının sıravi üzvü kimi fəaliyyətə başlamış, sonra özək sədri, sonuncu konfransdan sonra maliyyə katibi işini yerinə yetirmisiniz.**

**Apardığınız yorulmaz, prinsipal və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Arif bəy!**

**Bir daha Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**



# Cəbhə xəttində erməni tutuldu

**Avqustun 26-da Ermənistan vətəndaşı, 1961-ci il təvəllüdlü Ananyan Sarkis Norikoviç Azərbaycan-Ermənistan dövlət sərhədini pozaraq qeyri-qanuni olaraq ölkəmizin ərazisinə keçib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, könüllü olaraq Qazax rayonunun Kəmərli kəndi istiqamətində ərazimizə keçərkən S.Ananyan müdafiənin ön xəttində yerləşən Silahlı Qüvvələrimizin bölmələri tərəfindən saxlanılıb:**

"İlkin araşdırma nəticəsində məlum olub ki, Ermənistanın Noyemberyan rayonundan olan S. Ananyan ölkəsindəki sosial vəziyyətin agırlığından, şəraitsizlikdən və səfalətdən narazıdır. O bildirib ki, 10 yaşından sol ayağında problemlər olduğuna görə təhsildən və hərbi xidmətdən kənarda qalıb.

Dolanışığı çətin olduğuna görə həmişə muzdlu əməklə məşğul olub. Ölkəsindəki çətin durumdan bezdiyini deyən erməniyə görə, sosial vəziyyət o həddə çatıb ki, onun həmkəndlilərinin əksəriyyəti Azərbaycana keçmək, burada sığınacaq tapmaq niyyətindədirlər.

Nazirlikdən o da bildirilib ki, saxlanılan şəxs hazırda həkimlərin nəzarəti altındadır və onunla beynəlxalq hüquq normaları tərəfindən təsbit edilmiş qaydalar çərçivəsində davranılır.

# Müsavat qurultay üçün yenidən meriyaya müraciət edəcək

**Xəbər verdiyimiz kimi, Müsavat Partiyasının sentyabrın 27-də keçiriləcək qurultayı ilə bağlı namizədlərin qeydə alınması prosesinə start verilib. Avqustun 28-dən etibarən başlayan qeydiyyat prosesində indiyə qədər kifayət qədər şəxslər iştirak edərək, seçkili orqanlara iddialarını irəli sürüblər. Onların hər birinin namizədliyi qeydə alınıb.**

Müsavat başqanının müavini Gülağa Aslanlı qurultayla bağlı işlərin normal getdiyini söylədi: "Bir daha xatırlatmaq istəyirəm ki, həftənin bazar günü istisna olmaqla, qalan 6 gün səhər saat 10:00-dan başlayaraq, axşam saat 18:00-a qədər namizədlərin qeydə alınması prosesi aparılır. Bu günə qədər bir nəfər başqanlığa ( Tural Abbaslı), 6 nəfər MNTK-ya, 25 nəfər sərbəst Məclis üzvlüyünə iddiasını irəli sürüb. Hər bir namizəd ərizələrini təqdim edərək, müvafiq sənədə imza atıb. Bundan sonra namizədlikləri qeydə alınıb. Bu qaydada işlər davam edir. Digər texniki işlər barədə Təşkilat Komitəsinin yığıncağında məlumat veriləcək. Nizamnaməyə ediləcək əlavə və dəyişikliklər barədə də yekun qərar veriləcəyi gözlənilir".

**Partiya funksioneri qurultaya yer ayrılması ilə bağlı da müraciət ediləcəyini bildirdi:** "Qurultaya yer ayrılması ilə bağlı müraciət müzakirə olunacaq. Yəqin ki, qərar da qəbul ediləcək. Biz daim 800-1000 nəfərin yerləşə biləcəyi yer istəmişik. Son zamanlarda etdiyimiz müraciətlərdə bir qayda olaraq, Opera və Balet Teatrının binasını istəmişik. Yeni məktubda nələrin olacağını indidən söyləmək tezdir. Layihədə həmin yeri istəmək yenə nəzərdə tutulur. Başqa yerlər təklif olunacaqsa, həmin yerlərlə bağlı müzakirə aparmağa həmişə hazır olduğumuzu bildirmişik".

❑ Cavanşir ABBASLI

# Müsavat Seymur Həzi, Eldəniz Quliyev və Qubad İbadoğlunu müdafiə etdi

**Dünən Müsavat Partiyası Divanının növbəti toplantısı keçirilib. Bu barədə musavat.com-a partiyanın mətbuat xidmətindən məlumat verilib.**

İclasda qərarların icrası, görülən işlər müzakirə olunduqdan sonra partiyadaxili məsələlərə baxılıb.

Yığıncaqda Tovuz rayon təşkilatının iclas keçirməsi haqqında məlumat verilib.

Divan üzvləri AXCP İdarə Heyətinin üzvü Seymur Həzinin qanunsuz olaraq həbs olunmasını pisləyib və bu haqda Müsavat Partiyasının bəyanatını dəstəklədiyini bildiriblər.

Azərbaycan Ziyalılar Birliyinin sədri, kinorejissor Eldəniz Quliyevin ironiya ilə yazdığı statusa görə məhkəməyə cəlb edilməsi pislənib.

Partiyanın Divan üzvü, tanınmış iqtisadçı və QHT rəhbəri, bir sıra beynəlxalq təşkilatların idarə heyətinin üzvü Qubad İbadoğlunun istintaqa cəlb olunması, onun şəxsi və rəhbəri olduğu QHT-nin hesablarının dondurulması ölkədə vətəndaş cəmiyyəti fəallarının susdurulmasına, ölkəyə daxil olan qrantların yalnız hakimiyyətyönümlü QHT-lərə verilməsinə və hakimiyyətin nəzarətində olmasına hesablanan addım olduğu qənaətinə gəlinib.

Yığıncaqda vicdan məhbuslarının istintaqının ləngidilməsi onlara qarşı mənəvi təzyiqlərin artırılması kimi qiymətləndirilib və onların həbsinin əsassız olduğunun bir daha təsdiqləndiyi qeyd edilib.

Sonda cari məsələlərə baxılıb.

❑ Musavat.com

# İnterpol Hüseyn Abdullayevin axtarışını dayandırıb

## "Bu fakt sübut etdi ki, mənə qarşı olan ittihamlar saxtadır"

## Keçmiş millət vəkili: "Artıq dünyanın bütün ölkələrinə sərbəst şəkildə gedib-gələ biləcəm, Azərbaycandan başqa"

**İnterpol təşkilatı 2014-cü ilin avqustundan Azərbaycan Milli Məclisinin keçmiş üzvü Hüseyn Abdullayevin axtarışını dayandırıb. Yada salaq ki, Hüseyn Abdullayev haqqında İnterpol xətti ilə axtarış Azərbaycan dövlətinin müraciəti əsasında həyata keçirilirdi. Bir müddət öncə Azərbaycandan gedən Hüseyn Abdullayevə Almaniya 2014-cü ildən siyasi sığınacaq verib.**

Keçmiş millət vəkilinin "Yeni Müsavat"a göndərdiyi açıqlamanı təqdim edirik.

"Hörmətli həmvətənlərim, sevimli xalqım!

Sizin nəzərinizə çatdırıram ki, vəkillərimin uzun müddətdir apardığı qarşılıqlı yazışmalar nəticəsində mərkəzi Fransanın Lion şəhərində yerləşən Beynəlxalq Polis Təşkilatı (İnterpol) avqust ayından mənim haqqımda axtarışı öz rəsmi veb səhifəsindən çıxarıb.

Hesab edirəm ki, belə bir mühüm faktın özü mənim nə qədər günahsız olduğumu bir daha təsdiq edir. Eyni zamanda bu hadisə onu göstərir ki, Azərbaycanda mənə yönələn ittihamlar tamamilə saxta, qərəzli və siyasi motivlidir.

Dəyərli dostlarım! Bundan sonra Azərbaycandan başqa bütün ölkələrə sərbəst gediş-gəliş imkanım var. Azərbaycana gəlişimi isə haqqımda saxta ittihamlarla qaldırılan cinayət işi əngəlləyir. Mənə və ailəmə qarşı basqılar bu gün də davam edir. Belə çətin durumda mənə dəstək olan bütün insanlara dərin təşəkkürümü çatdırıram. Ayrıca, qarşılaşdığım çətin hüquqi süreçdə hüquqi dövlət olduğunu bir daha təsdiqləyən, insan hüquq və azadlıqlarını, ədalətli olmağı öz dövlət idarəçiliyində təməl prinsip sayan Almaniya dövlətinə minnətdarlığımı ifadə edirəm".

❑ Aygün MURADXANLI



# Seymur Həzinin həbsindən apelyasiya şikayəti verildi

## Jurnalist Bakı İstintaq Təcridxanasında saxlanılır

**Xəbər verildiyi kimi, avqustun 29-da AXCP Rəyasət Heyətinin üzvü, "Azadlıq" qəzetinin əməkdaşı, "Azərbaycan saatı" verilişinin aparıcısı Seymur Həzi həbs edilib. O, tanımadığı şəxsi silah kimi istifadə olunan şüşə butulka ilə döyməkdə ittiham edilir. Vəkili və yaxınları onun həbsinin siyasi fəaliyyəti ilə əlaqədar olduğunu iddia edirlər.**

Avqustun 30-da onun barəsində Abşeron Rayon Məhkəməsinin qərarı ilə 221.3 maddəsi ilə (silah və silah kimi istifadə olunan əşya tətbiq etməklə xuliqanlıq) cinayət işi açılıb. Haqqında ilkin istintaq dövrü üçün 2 aylıq həbs-qətimkan tədbiri seçilən AXCP üzvü artıq Bakı İstintaq Təcridxanasına köçürülüb.

**Vəkil Elton Quliyev** Seymur Həzinin həbsi ilə bağlı apelyasiya şikayəti verdiklərini bildirdi: " Artıq biz həbsə etiraz olaraq, apelyasiya şikayətimizi vermişik. Yaxın günlərdə şikayətimizə baxılacaq. Vəkili olaraq, Seymur bəylə görüş planlaşdırıram. Polis İdarəsindən atasına Bakı İstintaq Təcridxanasına köçürüldüyünü deyiblər".

S. Həzinin qardaşı Teymur Həziyev onun Bakı İstintaq Təcridxanasına köçürüldüyünü təsdiqlədi: "Yeni həbs olunub. Qarşıda nələrin baş verəcəyini bilmirik. Həbs edildikdən sonra onunla hər hansı bir əlaqə qura bilməmişik".

**Həbs edilən AXCP üzvünün atası Məşgül Həziyev oğlunun həbsini qanunsuz hesab etdiyini dedi:** "Övladımın həbsini ədalətsiz hesab edirəm. Evdən çıxan bir adamı hakimiyyətin qurduğu oyunla, siyasi yazılarına görə həbs ediblər. Onu şərləyən insanı ümumiyyətlə tanımırıq. Seymurun özü də istintaqda o adamı tanımadığını və kənardan gələn birisi olduğunu bildirib".

**M. Həziyev oğlunun heç zaman mübarizədən çəkilməyəcəyini bildirdi:** "Seymur elə bir mübarizə aparır ki, geri çəkilməyini bir valideyn kimi, heç zaman istəmərəm. Çünki bütün dünyada demokratiya uğrunda mübarizə, iqtidar-müxalifət var. Bizdə də var və olmalıdır. Haqqını tələb edən insan niyə geri çəkilməlidir? Övladım hansı günahı işləyib? Heç bir valideyn istəməz ki, övladı həbs edilsin".

**Seymur Həzinin atası sona qədər oğluna dəstək verəcəyini söylədi:** "Hansı nöqtədə olursa-olsun, canım və qanımla onun yanındayam. Son nəfəsimə qədər onu dəstəkləyəcəm. Zəhmət çəkərək Seymuru böyütmüşəm. Deməli, çətin anlarda onun yanında olmaq valideyn borcumdur".

❑ Cavanşir ABBASLI

## Başsağlığı

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı Lazım Məlikova anası Səfurə Bayramovanın vəfatından kədərləndiyini bildirir, dərin hüzlə başsağlığı verir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər

➔ kompyuter kursları

➔ Magistratura - dövlət qulluğu - məntiq

➔ 1.C. mühasibat - anbar - bank işi

➔ Məktəbə qədər həftədə 5 dəfə

➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95

**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




# Prezident "Xutor dairəsi"ndəki yolun açılışında

**Prezident İlham Əliyev Bakının Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində ("Xutor dairəsi") inşa olunan müxtəlif səviyyəli yol qovşağının açılışında iştirak edib.**

Nəqliyyat naziri Ziya Məmmədov görülən işlər barədə İlham Əliyevə məlumat verib.

Qovşaqda üç tunel, bir körpü, iki piyada keçidi inşa olunub. Buradakı tunellərin uzunluğu 880, 827, 450 metr, ikisinin eni 10,5, birinin eni isə 22 metr təşkil edir. Qovşaqda müasir səviyyədə inşa edilən körpünün uzunluğu 630 metr, eni isə 12 metrdir.

Bu qovşağın istifadəyə verilməsi ilə Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillər tunellərdən 20 Yanvar dairəsi və Qələbə meydanı istiqamətinə maneəsiz hərəkət edə biləcək. Bundan başqa, qovşaq 20 Yanvar dairəsi və Qələbə meydanından gələn nəqliyyat vasitələrinin əks istiqamətə - Ziya Bünyadov prospektinə çıxışını təmin edir. Bu nəqliyyat layihəsinin icrası nəticəsində Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillərin respublikamızın şimal bölgəsinə və əks istiqamətə gedən magistrallara rahat çıxışı da təmin olunur. Qovşaqdakı körpüdən isə avtomobillər Əbdülvahab Salamzadə küçəsindən Rəşid Məmmədov küçəsinə və əks istiqamətə rahat hərəkət edə bilir. Bu isə öz növbəsində Qələbə meydanından mikrorayonla və əks istiqamətə maneəsiz hərəkətin təmin edilməsinə imkan yaradır.

# Əflatun Amaşov Ramil Usubova müraciət etdi

**Azərbaycan Mətbuat Şurası "Azadlıq" qəzetinin yazarı, "Azərbaycan saatı" proqramının aparıcısı Seymur Həzinin həbsi ilə bağlı daxili işlər naziri Ramil Usubova müraciət ünvanlayıb. Bu barədə musavat.com-a Mətbuat Şurasının sədri Əflatun Amaşov məlumat verdi. Ə.Amaşovun sözlərinə görə, Mətbuat Şurasının müraciətində deyilir:**

Cənab nazir!

Seymur Həzi avqustun 29-da Cinayət Məcəlləsinin 221.3 maddəsi ilə təqsirli bilinərək barəsində cinayət işi başlanılıb, Abşeron Rayon Məhkəməsi onun barəsində həbs-qətimkan tədbiri seçib.

Hörmətli Ramil müəllim!

Hələlik Seymur Həzinin barəsində başlanmış cinayət işi üzrə istintaq gedir, son sözü məhkəmə deyəcək. Seymur Həzi jurnalist olduğu üçün onun həbsi Mətbuat Şurasının diqqətindədir. Əminik ki, proses sizin sayənizdə ədalətli, qanunun tələblərinə uyğun şəkildə həllini tapacaq, onun jurnalist olması nəzərə alınacaq.

❑ M.MAHRIZLI



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014

## Üçqoşan

*(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)*

**İş elə gətirib ki, daha bir kamera yoldaşımı sizə təqdim etməliyəm. Çünki yazının canı onunla bağlıdır. Yazmağa başlamamış onu hancarı təqdim etmək haqqında tərəddüdüm varıydı. Nəhayət, özünün razılığını alandan sonra yazmağa başladım. Məlikov Tural ağdaşlıdır. 34 yaşı var. Narkotik üstündə tutulub. Tutulanadək könhə "nol bir"iylə "taksavatlıq" edirmiş və günlərin birində şeytan onu yoldan çıxardıb. Çox sakit, doğru danışan, qanacaqlı, sadəlövh adamdır. Amma o, tam savadsızdır. Məsələn, o, bu ilin neçənci il olduğunu, yazıb-oxumağı, hətta stolüstü saata baxıb vaxtı deməyi də bilmir. Hər sözünü mütləq "mən savadsız adamam" ifadəsi ilə başlayar, sonra mətləbə keçər.**

Bir dəfə ondan soruşdum ki, məktəbə getmisənmi? Çox əmin və qətiyyətli oldu: "Əlbəttə ki, getmişəm, müəllim, elə şey olarmı?" Növbəti sualım "neçənci sinfə qədər məktəbə getmisən" oldu. Cavabını olduğu kimi yazıram: "Məllim, birinci sinfə qədər oxudum".

Düzünə qalsa, Tural söhbət eləməyi o qədər xoşlamır, o, ancaq qulaq asmağı üstün tutur. Əslində düz edir, bəzi heç nə bilmədiyin bilməyənlər kimi hər söhbətə qoşulub zəhlə tökmür.

6 nəfərlik kamerada hamı mənə "məllim" deyə müraciət edir. Ona görə azdan-çoxdan savadım var. Bunu nəzərə alaraq dünyadan, siyasətdən, elmdən və s. suallar verirlər, mən də imkanım çatınca onlara cavab verirəm. Bu müddət ərzində Tural mənə cəmi bir dəfə sual verib. Yayın istisinin bizə əziyyət verdiyi günlərdə Turalla bərabər gəzinti otağının bir küncündə oturmuşduq. Bəlkə də Tural bəy yanımızda başqalarının olmadığı bu məqamı, nəhayət, onun da mənə bir "elmi" sual verməsi üçün unikal fürsət bilib dilləndi: "Məllim, mən savadsızam, amma siz çox savadlı adamsınız. Yəqin ki, bu istidənsə, bir sərin hava olsa daha yaxşıdır, elə döyülmü?" Həmin an Turalın üzünə baxdım, çox narahat idi, axı sualı təsdiqləyici formada vermişdi. Qorxurdu ki, burada da savadsızlığı üzə çıxar və mən deyərəm ki, nə danışırsan, heç sərin havanın yeridirmi, nə qədər çox isti olsa, o qədər yaxşıdır. Ancaq mən insafsızlıq etmədim, onun sualını heç "bu ki, aydın məsələdir" şəklində də təsdiqləmədim. Dediklərini elə təsdiqlədim ki, sanki "Kim milyonçu olmaq istəyir" məşhur teleoyununda milyon qazandıracaq sonuncu mərhələ sualının cavabını düz tapmışdı.

***

Dilçilərimiz türkcəmizin təkmilləşdirilməsi, saflaşdırılması, yeni sözlərin yaradılması qayğısı ilə yaşayırlar. Oxuduqlarımdan bilirəm ki, Cəfər Cabbarlı və Anar kimi ədiblərimiz bir çox əcnəbi sözlərin öz türkcəmizdə uğurlu qarşılığını tapıblar. Zaman-zaman dilçilərimiz məişətimizin texnoloji inkişafı ilə meydana gələn yeni əşya və anlayışlara uyğun sözlər yaradırlar. Bu yöndə "Azadlıq" qəzetinin köşə yazarı Xaliq Bahadırı xüsusi qeyd etmək olar. Şəxsən mən özüm çalışıram ki, danışanda və yazanda öz türkcəmizdən kənara çıxmayım. Amma bəzən elə sözlərə rast gəlirəm ki, onu bizim dildə ifadə etməyə çətinlik çəkirəm. Məsələn, bir dəfə köşə yazımda "qorşok" sözünün qarşısında aciz qaldığımı etiraf etmişdim. Yalnız Qabriel Qarsiya Markesin "Yüz ilin tənhalığı" romanını öz türkcəmizdə oxuyanda bu sözün güvəc kimi qarşılığının tapıldığını öyrənmişdim.

Mənim üçün belə qəliz sözlərdən biri də elektrik "traynik"idir. Ha çalışırdım bu məişət elektrik alətinin öz dilimizdə qarşılığını tapım, ya da özümdən bir şey toxuyum, alınmırdı ki, alınmırdı.

Bir dəfə kamerada bu elektrik alətindən söz düşdü. Mən "traynik"ə çatıb dayandım. Bu sözü rusca demək istəmirdim. Ani tərəddüdə qapıldığım anda Tural dilləndi: "Məllim, üçqoşanı deyirsiniz". "Üçqoşan" necə də dəqiq ifadə idi. O anda gözümdə Tural sanki böyük ədibimiz İlyas Əfəndiyevin "Üçatılan" əsəri kimi bir əsər yaratmışdı. Düzü, dəqiqləşdirə bilmədim Tural bunu özündən dedi, yoxsa onlar tərəfdə hamı belə deyir. Bəlkə də çox yerdə belə işlədilir. Ancaq mən bu sözü ilk dəfə Turaldan eşitdim, ona heç bir kitab-dəftərdə rast gəlməmişdim. Bu sözə görə Turala çox təşəkkür etdim. Turalsa heç nəyin fərqində deyildi, mənim nəyə sevindiyimi kəsdirə bilmirdi. Sanki qarşımda yeni qitə kəşf etdiyindən xəbəri olmayan Xristofor Kolumb dayanmışdı. Ona dönə-dönə izah etdim ki, sən mənim üçün *(olsun ki, türkcəmiz üçün)* çox vacib kəşfə imza atıbsan. Həmin an Turalın reaksiyasından və sözlərindən belə başa düşdüm ki, məsələnin mahiyyətini ona izah edə bildim.

Həmin gün axşam elektrik qəhvədanını qoşmaq üçün üçqoşan lazım gəldi. Üzümü Turala tutub "üçqoşanı tapıb mənə verə bilərsənmi" dedim. O, domino daşlarının içindən "üçqoşa"nı gətirib qabağıma qoyanda hiss etdim ki, deməyə söz tapmıram. Axır özümü toparlayıb dedim: "Tural, mən üçqoşuyu yox, üçqoşanı istədim".

# Redaktorlar Prezident Administrasiyasındakı görüşdən hansı nəticəni çıxardılar?

**Xəbər verdiyimiz kimi, avqustun 29-da Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev redaktorlar, televiziya və dövlət qurumlarının mətbuat xidmətlərinin rəhbərləri ilə müşavirə keçirib. Müşavirədə geniş məruzə ilə çıxış edən R.Mehdiyev Azərbaycanın informasiya təhlükəsizliyi ilə bağlı bir sıra aktual məsələləri də redaktorlarla müzakirə edib. R.Mehdiyev xəbərdarlıq edib ki, dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, dövlət tərəfindən mühafizə edilən məlumatlar dövlət sirri kateqoriyasına şamil edildiyindən həmin məlumatların yayılması qanuna müvafiq məsuliyyət yaradır.**



**Rauf Arifoğlu:**
"Diqqətli olacağıq; çünki bilirik ki, bizim ciddi səhv etmək lüksümüz yoxdur"



**Aynur Camalqızı:**
"Bunun qarşısını peşəkarlıqla almaq olar"



**Aydın Quliyev:**
"Həbs olunan jurnalistlər də ola bilər, qapanan qəzetlər də"



**Sücəddin Şərifov:**
"Mövqeyimiz olduğu kimi davam edəcək"

Bundan başqa, administrasiyanın rəhbəri avqustun əvvəlində Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində müşahidə olunan gərginliklə bağlı məlumatların yayılmasında neqativ halların olduğunu deyib. O, həmin ərəfədə bəzi kütləvi informasiya vasitələrinin, xüsusilə internet resurslarının qanunvericiliyin tələblərinə zidd və qeyri-peşəkar fəaliyyət göstərdiyini vurğulayıb.

Redaktorların bu toplantıdan çıxardığı nəticələr isə media caməəsi, eləcə də oxucular üçün maraqlıdır. Görüş media azadlıqlarının daha da qısıtlanmasına səbəb ola bilərmi? Onu bir təhdid saymaq olarmı? Redaktorlar bundan belə işlərində, fəaliyyətlərində orada səsləndirilən tələb və təklifləri nəzərə alacaqlarmı? Müşavirə nələri dəyişdi?

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu bildirdi ki, R.Mehdiyevin çıxışında təkcə xəbərdarlıq yox, həm də hakimiyyətin və dövlət təsisatlarının adından narahatlıq da ifadə olundu. Onun sözlərinə görə, sonuncu daha çox hərbi məsələlərlə bağlı xəbərlərə aid idi:** "Bu xəbərlərdə sistemsizliyin, xaosun olmasını, tiraj yarışına qapılaraq yoxlanılmamış məlumatların verilməsini vurğuladı. Administrasiya məmurlarının da çıxışlarından aydınlaşdı ki, onlar hərbi sferaya aid məlumatların, o cümlədən, girov götürülən hərbçilərlə, şəhid düşən əsgərlərlə bağlı məlumatların Müdafiə Nazirliyinin təsdiqindən və redaktəsindən keçmədən yayımlanmasına qarşıdırlar. Arqumentlər də səsləndirdilər, haqlı olduqları da vardı, haqsız arqumentlər də vardı. Məsələn, razılaşdım ki, şəhid olan əsgərin şəxsiyyətinin Müdafiə Nazirliyindən əvvəl açıqlanması düz deyil. Övladının şəhid olması xəbərini saytdan oxuyan bir ailənin, nəslin, kəndin vəziyyətini təsəvvür edin. Müdafiə Nazirliyi ailəyə xəbəri özü verib onları hazırlamalıdır bu duruma. Hərbi texnikanın, hərbi hissələrin yerlərini, adlarını açıqlayan məlumatlara da yol vermək olmaz. Sərhəd kəndlərindən hazırlanan reportajlara dair iradları da doğru hesab edirəm. Lakin ortalığa səsləndirilən iradlardan bizim "Yeni Müsavat"a, musavat.com-a və minval.az-a aid olanları minimum buldum "...

**R.Arifoğlu dedi ki, sözügedən müşavirədə daha çox diqqət çəkən o oldu ki, hakimiyyət son üçgünlük müharibə zamanı cəbhə xəbərlərinin yoxlanmadan, hətta bəzən dezinformasiya olduğu halda yayımlanmasından narahatlıq keçirib. Baş yazarın sözlərinə görə, hərbi texnikanın dislokasiyasının videoya çəkilməsi, bu barədə xəbər verilməsi də səslənən iradlar sırasında idi. Sözügedən toplantının "Yeni Müsavat" qəzetinin və musavat.com saytının işinə göstərəcəyi təsirə gəlincə, R.Arifoğlu vurğuladı ki, hakimiyyət və onun məmurları öz mövqelərini, təkliflərini bildirə bilərlər, buna əməl edib-etməmək müstəqil redaksiyaların işidir:** "Biz bir neçə halı artıq nəzərə aldıq, müşavirədən çıxan kimi dərhal redaksiya ilə əlaqə saxlayıb, bildirdim ki, hərbi hissələrin adları və bu tipli məsələlərlə bağlı diqqətli olsunlar. Kəmərli kəndindən hazırlanan bir reportajı nömrədən çıxartdım. Bundan sonra Müdafiə Nazirliyindən gələn rəsmi xəbərlərə daha çox üstünlük verəcəyik. Onsuz da biz dezinformasiya, yalan xəbər yaymırıq. Sadəcə, imkanlarımız elədir ki, bəzən nazirliyi, başqa KİV-ləri xəbərdə qabaqlayırıq... Qalan məsələləri də kollektivlə müzakirə etdik. Qərarlar verdik. Diqqətli olacağıq. Çünki bilirik ki, bizim ciddi səhv etmək lüksümüz yoxdur. Lakin mənə bir sıra məsələlər hələ də axıra qədər aydın deyil. Onları da aydınlaşdırmağa çalışacam".

**Publika.az saytının və "Gündəlik Teleqraf" qəzetinin təsisçisi və baş redaktoru Aynur Camalqızı artıq sözügedən toplantıda eşitdikləri iradlardan irəli gələn bir sıra addımlar atdıqlarını dedi. Kollektiv olaraq toplandıqlarını deyən baş redaktorun sözlərinə görə, burada mühüm qərarlar da qəbul ediblər:** "Belə qərar verdik ki, Qarabağ münaqişəsinin hələ də həll olunmadığını, ordunun qapalı struktur olduğunu nəzərə alaraq bu struktura aid olan xəbərlərdə ancaq rəsmi, Müdafiə Nazirliyinin mətbuat xidmətinin xəbərini verəcəyik. Bu, ön cəbhədə baş verən son olaylardan sonra milli təhlükəsizliyimizə təhdid olan bəzi halların qarşısını almaq üçündür. Bunun qarşısını peşəkarlıqla almaq olar. Mən hələ ki təmsil etdiyim mətbu orqanlarda bu məsələnin prioritet olmasına çalışacam".

**A.Camalqızı sözügedən istiqamətdə verdikləri daha bir qərarı da açıqladı. Dedi ki, saytlar arasında olan qeyri-rəsmi yarışmaya son vermək üçün saytlarındakı sayğacları, oxunma sayı ilə bağlı bildirişləri yığışdırıblar:** "Dünyanın heç bir media orqanında bu görünmür. Bunun oxucuya heç bir aidiyyəti yoxdur. Bunu hansısa formada reklam şirkətlərinə nümayiş etdirəcəyik. Bununla da saytlar arasında qeyri-sağlam rəqabətin qarşısı alına bilər. Həmkarlarıma da deyirəm ki, gəlin biz peşəkarlıq müstəvisində rəqabətimizi davam etdirək. Sayğacların 90 faizində hansı fırıldaqların baş alıb getdiyini bilirik. Bunu aradan qaldırmaqla oxucuya gerçək seçim imkanı yaratmaq olar".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirdi ki, sözügedən toplantıda müzakirə olunan məsələləri nəzərə almadan fəaliyyət göstərmək olmaz. Onun sözlərinə görə, orada söhbət həm medianın hazırkı şəraitdə cəbhədə yaranmış yeni şəraitə uyğun olan, yeni davranışlarının tənzimlənməsindən, həm də bəzi hüquqi normativlərin dəyişdirilməsindən gedib:** "Müzakirə olunan məsələlər bundan sonra nəzərə alınmadır. İnformasiya təhlükəsizliyi ilə bağlı məsələni hər zaman nəzərə almışıq. Televiziya və radioda bir neçə dəfə çıxışlarımız olub. Yeni mediaya tutulan bir çox iradları əsaslı qəbul edirik. Həmin iradlar bir sıra KİV-lərin fəaliyyətində iyulun 31-dən sonra daha qabarıq özünü göstərdi. Məncə, Azərbaycan mediası və jurnalistlər müharibə qanunları ilə tənzimlənən fəaliyyət qanunlarına keçməlidir. Bu keçid bəzi mətbuat orqanlarına çətinlik olacaq. Dövlət, informasiya təhlükəsizliyində konkret məhdudiyyəti gözləməyən qəzet və jurnalistlər üçün çətinlik olacaq. Həbs olunan jurnalistlər də ola bilər, qapanan qəzetlər də. Onlar özlərində bu məsuliyyəti hiss etməlidir".

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov bildirdi ki, bu toplantıdan çıxan nəticə Azərbaycan hökumətinin onun kimi düşünməyənlərə qarşı bir savaş elan etməsidir. Müsahibimiz bu günə qədər təmsil etdiyi mətbu orqanın ölkədə baş verən hadisələrə tənqidi yanaşdığını xatırlatdı:** "Orda bizə də tənqid oldu ki, yaxşını görmürlər və sair. Biz bu ittihamlarla razı deyilik. Çünki bizim tənqidlərin ya zamanında, ya da bir müddətdən sonra doğru olduğu məlum olub. Zaman-zaman orduda, təhsildə korrupsiyadan yazmışıq, buna görə məhkəmələrə düşmüşük. Amma zaman keçəndən sonra Ramiz Mehdiyev səviyyəsində tutaq ki, təhsildə problemlərin olması barədə məqalə yazılıb. Ona görə də bu toplantıdan sonra da mövqeyimiz olduğu kimi davam edəcək".

**Konkret hərbi məsələlərlə bağlı deyilənlərə gəlincə, S.Şərifov dedi ki, hərbi məsələdə ölçülü-biçili və çox diqqətli olublar:** "Ona görə də hərbi sahə ilə bağlı ittihamları özümüzə götürmürük".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014








## Avesta Konsernindən növbəti əməkdaşlıq memorandumu

**Süni adalarda inşa olunan "Khazar Islands" şəhərinin müəllifi Avesta Konserni investisiya sahəsində növbəti əməkdaşlıq memorandumuna imza atıb. Belə ki, Çinin "Hong Mong Financial Group" şirkəti ilə bağlanmış memoranduma əsasən, tərəflər həm investisiya, həm də inşaat sahəsində birgə əməkdaşlığa dair razılığa gəliblər.**

Bundan başqa, "Hong Mong Financial Group" inşası davam edən şəhərdə ekoloji təmiz və zərərsiz texnologiyalardan istifadə etməklə suyun təmizlənməsi və mineral gübrələrin istehsalını öz üzərinə götürməyi planlaşdırılıb. Həmçinin elektrik enerjisi istehsalı üçün tikiləcək stansiyanın tikintisi də nəzərdən keçirilib.

❑ **Avesta Konserninin mətbuat xidməti**




## Azərbaycanın adını səhv yazdılar

**Sentyabrın 12-dən 28-dək Azərbaycanda ilk dəfə olaraq Beynəlxalq Hindistan Sərgisi keçiriləcək. "Üç nöqtə"nin məlumatına görə, bununla bağlı elanlara internetdə və şəhərin bütün nöqtələrində rast gəlirik. Bu qədər geniş reklam olunan sərginin plakatlarında isə Azərbaycan sözü "Azəraycan" olaraq yazılıb.**

Yəni ölkəmizin adındakı B hərfi yoxdur. Və xeyli müddətdir reklamlar bu cür səhv getsə də, dəyişdirilmir. Bununla bağlı reklam plakatlarının üzərindəki nömrə ilə əlaqə saxladıq.

Özünü təqdim etməyən Hindistan vətəndaşı bu haqda məlumatlı olmadığını bildirdi:

"Biz Hindistandan gəlib burada sərgini təşkil edirik. Reklam işlərini isə azərbaycanlı reklamçılara həvalə etmişik və bütün reklamlar Bakıda hazırlanıb. Əgər elə bir yanlışlıq varsa, biz onu qısa zamanda həll etməyə çalışacağıq. Biz reklamları hazırlayan şirkətlə danışıb bu haqda yenidən məlumat verəcəyik".

### "Toy oliqarxları"na böyük zərbə hazırlanır




# Şadlıq evləri bağlanır - şok təfsilat

## Dövlət yas mərasimlərinin tənzimlənməsindən sonra toy biznes sektorundakı xaotik vəziyyəti də qaydaya salmağı nəzərdə tutur; bunun üçün xüsusi qanun layihəsi hazırlanır; həyata keçirilən həbslərin fonunda bir sıra populist islahatlara da start verilir...

**Siyasi hakimiyyətin yas mərasimlərindəki dəbdəbənin, verilən ehsan süfrələrindəki israfçılığın aradan qaldırılmasına hesablanan addımları xalq arasında yüksək rəğbətlə qarşılanıb. "Yeni Müsavat" xəbər verir ki, bunu qəzetin poçtuna gələn məktublar, telefon zəngləri və jurnalistlərin mövzuya dair keçirdiyi sorğular təsdiq edir.**

Qəzetimizə çatan bilgilərə görə, hakimiyyətin hər ay xidməti məqsədlərlə keçirdiyi sorğuda əhali tərəfindən ən çox bəyənilən addım da bu olub.

Doğrudur, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rəhbəri Allahşükür Paşazadənin ticari məqsədlərlə istifadə etdiyi yas mərasimlərinin təşkili sektoru hələlik dövlətin bu kursunu sabotaj etməklə məşğuldur. Şeyxin ehsan və yas zalları əvvəlki kimi, zəngin müştərilərdən sifariş alır və onlar nə istəyirsə, onu da icra edir. Lakin bu məsələdə dövlət quruluşları inzibati metodları işə salıblar; bu baxımdan Şeyximizin sabotajı uzun müddət davam edə bilməz.

"Yeni Müsavat" qəzetinin bu mövzunu manşet yazısına çevirməkdə məqsədi isə xronika təqdim etmək deyil. Əksinə, daha sensasional və əhalinin bütün kateqoriyadan olan üzvlərini maraqlandıran bir plan haqda ictimaiyyətə anons verməkdir.

Məlumat bundan ibarətdir: hakimiyyət yas mərasimlərinin təşkili ilə bağlı atdığı addımları toy məclislərinə də şamil etməyə hazırlaşır. Hamıya məlumdur ki, bu sahədə vəziyyət daha biabırçıdır - toy məclislərinin təşkilindəki hədsiz təmtəraq, israfçılıq, yarış atmosferi bir ictimai bəla halına gəlib. Əksəriyyəti vəzifəli məmurlara məxsus olan şadlıq sarayları demək olar ki, hər gün qiymətləri artırır, bununla bərabər, insanların istismarı, soyulması da yüksələn xətt üzrə davam edir. Böyük bir biznes şəbəkəsi, sənaye halına gəlib çıxmış toy mərasimləri Azərbaycanda qonaq olan hər kəsi heyrətləndirən israfçılığa yol açır. Həm də burada hər şey mafiya qaydaları üzərində qurulub və amansızdır. Bəzən toy sahibləri restoranların pulunu ödəyə bilmirlər - dəvətlilər az gəlir, ya da nəmər pulları az yığılır - bu zaman hətta təzə evlənən cütlükləri, ya da onların yaxınlarını şadlıq saraylarının işçiləri girov kimi saxlayır, borc pulları gec tapanlar toylarının ilk gecəsini şadlıq sarayında girov kimi qalırlar. Buradaca qeyd edək ki, belə bir hadisə "Yeni Müsavat"ın keçmiş əməkdaşlarından birinin də başına gəlib: yalnız redaksiya borc kimi qalan məbləği yığdıqdan sonra əməkdaşı olan bəyi və onun xanımını şadlıq evindəki girovluqdan qurtara bilmişdi.

Bu cür hallar böyük ictimai qınaq və qəzəb dalğası yaradır. İctimai mühiti, milli dəyərləri korlayan bu cür hallar millətə yas mərasimləri zamanı baş verən neqativlərdən daha ağır zərbə vurur. Bu baxımdan, son həbslərlə ictimai rəydə müəyyən qınaqlar qazanan hakimiyyətin növbəti populist addımı gözləniləndir.

Məlumatlara görə, hakimiyyət bu problemin kökdən və inzibati həllindən başqa, həm də qanun layihəsi hazırlayır. Həmin layihə ictimai sektordakı müəyyən qaydaları dəyişməyi hədəfləyib. O cümlədən də, yas və toy mərasimlərinin təşkili qaydalarını tənzimləmək qaydaları burada özünü əks etdirəcək.

Burada məsələnin ən sensasional cəhəti isə budur ki, ölkədə göbələk kimi boy verən şadlıq sarayları şəbəkəsi tam nəzarətə götürüləcək və bu sarayların bir çoxunun təyinatı məcburən dəyişdiriləcək. İndiki şadlıq saraylarının əksəriyyəti ticarət-əyləncə və idman-əyləncə komplekslərinə çevriləcək. Onlara itirdikləri gəlirləri bu sahədə kompensasiya etmək imkanları yaradılacaq.

**Məlumatları şərh edən siyasi ekspertlərdən biri "Yeni Müsavat"a deyib ki, avtoritar tipli hakimiyyətlər daim populist və özünə ictimai rəydə pozitiv gətirən addımlar atmağı sevir və bu, onun xarakterindən doğan bir zərurətdir:** "İqtidarın metro stansiyalarında ticarəti yığışdırması minlərlə vətəndaşın xoşuna gəlmədi və etiraz yaratdı. Bunlar qəzet-kitab satıcıları, redaksiyalar və digər satıcılar idi. Lakin sonradan məlum oldu ki, prezidentin şəxsi iradəsi ilə atılan bu addım metro istifadəçisi olan 100 minlərlə vətəndaşda rəğbət yaradıb və təqdir alıb. Stansiyaların təmizlənməsi, oradan xaosun yığışdırılması hər gün metroya girib-çıxan azərbaycanlıların təqdirini qazanmaya bilməzdi. Yas məclislərində ehsan süfrələri ilə bağlı hakimiyyətin müdaxiləsi də ilk öncə Naxçıvanda sınaqdan çıxarıldı - hətta Vasif Talıbov kimi müstəbid də bu addımlarına görə təqdir qazandı. İndi onun Azərbaycan boyunca tətbiqi də eyni reaksiya doğurub. Lakin dərhal da qoşma tələb ortaya çıxıb: "Bəs toy məclisləri? Axı orada vəziyyət daha biabırçıdır. Hakimiyyət niyə bu məsələni yoluna qoymur?"

Və budur, hakimiyyət bu məsələni də yoluna qoymaq üçün bu payız hərəkətə keçəcək və yuxarıda qeyd etdiyimiz hərəkətləri həyata keçirəcək.

**Siyasi ekspert deyir ki, zaman irəlilədikcə, siyasi hakimiyyət ictimai rəydə ona bu cür rəğbət qazandıra biləcək addımları artırmaq ehtiyacı hiss edəcək. Bu zaman "cəngəllik kapitalizmi" dövründə əlinə böyük sərmayə yığmış və hazırda biznes sektorunda ciddi paya sahib olan regional oliqarxiya sıradan çıxarılacaq:** "Öncə onların bir çoxunu siyasi hakimiyyətdə, hakim partiyada rəy və ixtiyar sahibi olmaqdan məhrum etdilər. Onlar mafioz tipli, bu hakimiyyəti də özlərinə borclu bilən regional əsaslarla zəngin olan, oliqarxlaşan simalar idilər. İndi isə onları biznes sektorundan da çıxardıb atacaqlar. Və bu zaman xalqa əyləncə və teatr lazım olsa, hakimiyyət buna da gedəcək və bu cür gözdən salınmış oliqarxlar "əsərin mənfi qəhrəmanı" obrazında şəbih iştirakçısı olacaqlar".

Hər kəs düşünə bilər ki, "toy sənayesi", şadlıq sarayları biznesi yüksək dərəcədə gəlir verir, minlərlə iş yeri deməkdir və hakimiyyət buna getməyəcək. Lakin xatırladırıq ki, metrostansiyalardakı biznes nöqtələri də yüksək gəlir verirdi və ayda 10 milyonlarla manat dövriyyəsi var idi. Orada bir neçə min insan ruzi qazanırdı. Buna baxmayaraq, siyasi hakimiyyət oranı bağladı. "Toy sənayesi" ilə də bu cür rəftar ediləcək.

Bir neçə ay sonra ölkədə toy məclislərinin təşkilində tamam başqa standartlar və sistem müşahidə edəcəyik. O zaman bu mövzuya bir daha qayıdarıq.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014

# QHT-lər müxalifətə pul veribmi; prezidentin ittihamına reaksiyalar gəldi

**Prezident İlham Əliyevin ötən həftə Beyləqanda rayon ictimaiyyəti ilə görüşündə müxalifətə xaricdən yardım adı altında milyonlarla vəsaitin ötürüldüyünü bəyan etməsi ciddi rezonansa səbəb olub. Bəzi müşahidəçilər hesab edir ki, yüksək səviyyədə səslənən bu bəyanat məhbus QHT rəhbərlərinin azadlığını nəinki tezləşdirəcək, əksinə, üçüncü sektorda yeni həbslərə qapı aça bilər.**

Üstəlik, müşahidəçilər təqib dalğasının müxalifət partiyalarına da yönələcəyi düşüncəsindədirlər. Qeyd edək ki, dövlət başçısı bəzi xarici dairələrin qloballaşma adı altında öz iradələrini tətbiq etmək istəyindən danışıb. "Xüsusilə gənclər arasında iş aparılır, müxtəlif fondlar vasitəsilə, guya ki, hansısa layihələrin icrası üçün vəsait ayrılır. Əslində gəncləri öz dövlətinə qarşı çevirmək, istiqamətləndirmək üçün işlər aparılır. Biz bunları bilirik. Bu gün Azərbaycanın uğurlu inkişafını heç də hər kəs qəbul etmir. Ölkə daxilində də milli satqınlar var ki, onlar xarici anti Azərbaycan dairələrinə öz vicdanını satıblar. Xarici dairələr var ki, çalışırlar Azərbaycanda sabitlik pozulsun, inkişaf dayansın, Azərbaycan asılı vəziyyətə düşsün. Biz bunu bilirik"-deyə, **İ.Əliyev bəyan edib. Ölkə başçısı qeyd edib ki, müxtəlif fondlar vasitəsilə, müxtəlif ölkələrdə kütləvi iğtişaşların, qarşıdurmanın yaradılması üçün praktiki addımlar atılır:** "Əgər 10 il bundan əvvəl bu, daha da məxfi formada aparılırdısa, hazırda artıq bütün maskalar yırtılıb, heç gizlətmirlər. Məqsəd də odur ki, təbii resurslarla zəngin, böyük potensiala, əlverişli coğrafi mövqeyə malik ölkələr təsir altına düşsün və başqasının diktəsi ilə hərəkət etsin, oturub-dursun. Bu isə o ölkələri məhvə aparır". **Prezident deyib ki, yardım adı altında Azərbaycana hər il milyonlarla dollar pul ötürülür:** "O pul müxalifət qurumlarının cibinə gedir. Düzdür, bizim müxalifət pula o qədər meyllidir ki, o ayrılan qrantların 70-80 faizini öz cibinə qoyur. Ona görə o pullar onu göndərənlərin iradəsi ilə xərclənmir. Ancaq fakt budur. Biz bunu bilirik, burada heç nəyi gizlətmək mümkün deyil. Bütün bank hesablarına nə qədər gəlir, kimə gəlir, o pul sonra hara gedir və bilin ki, verilən o vəsait ölkəmizin maraqlarının əleyhinə işləyən vəsaitdir. Onsuz da lap o miqdarı on dəfə artırsalar da bunun xeyri olmayacaq".

Bəs QHT rəhbərləri və siyasi partiyalar ayrılan pulların müxalifətə ötürüldüyü barədə ittihamı qəbul edirlərmi? Onların real situasiya ilə bağlı düşüncələri nədən ibarətdir?

**Məsələ ilə bağlı söhbət etdiyimiz Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin rəhbəri Novella Cəfəroğlu bildirdi ki, Müsavat Partiyasında təmsil olunsa da, bu təşkilata pul verməyib:** "Mən indiyə qədər üzvlük haqqından başqa Müsavata heç bir manat da verməmişəm. Hazırda heç ofisimizdə çalışan qızlarımızın maaşını verməyə pul tapırammı ki, Müsavata da verim? Vəziyyətimiz çox pisdir, 20 işçimiz var, mən heç onlara pul verə bilmirəm. 2 minə yaxın üzvlərimiz var, indi düşünürük ki, bəlkə üzvlük haqqı toplayaq".

**N.Cəfəroğlu hesab etmir ki, yüksək səviyyədə səslənən ittihamlar növbəti həbslərə səbəb olacaq:** "Məncə, bunlar hamısı çözüləcək. Sadəcə, vaxt lazımdır. İnşallah, sentyabrın axırı, oktyabrın əvvəllərində həm QHT-lərin, həm həbsdə olanların məsələsi ilə bağlı müsbət addımların şahidi olacağıq. Yəqin özləri də qəbul edəcəklər ki, belə davam etmək olmaz. Əslində QHT-lərə rayonlara da buraxmırlar. Milli şüur ayılmasa, nə qədər pul olsa belə, vəziyyət dəyişməyəcək. Ukraynada millətin arxasında böyük biznesmenlər, Poroşenko kimi şəxslər, parlamentin içində olan şəxslər durmuşdu. Burda parlament də özlərinindir, biznes də. Kimdir bizə pul verən? Kənardan hansı biznesmen bizə pul verib ki, hələ partiyalara da bu qədər maliyyə ayrılmasının özü bir növ hökumətə köməkdir. Çünki kimsə hansısa QHT-dən 100-200 manat maaş alırsa, bu da vətəndaşa dəstəkdir".



**Novella Cəfəroğlu:** "Mən indiyə qədər üzvlük haqqından başqa Müsavata bir manat da verməmişəm"



**İqbal Ağazadə:** "İndiyə qədər heç bir QHT-dən bir qəpik də maliyyə yardımı almamışıq"



**Qabil Hüseynli:** "Mən şahidi olmamışam ki, hansısa QHT partiyaya külli miqdarda maliyyə yardımı etsin"

**Hüquq müdafiəçisi ortada böyük pulların dövr eləməsi barədə iddialara belə cavab verdi:** "Biz indiyə qədər 50 mindən çox pul almamışıq. Elə il olub ki, ilimiz 80-90 minə də düşüb. Amma bunların hamısı iş müqabilində xərclənib. Regionlara getmək, orda camaata məvacib verilməsi, yemək, hoteldə qalmaq, keçirilən təlimlər zamanı ekspertlərə xərclənib. Əgər 1-2 manat artıq qalırsa, o da işıqpulu, evpulu, qazpulu, supulu xərclənir. İcarə haqqını ödəmək də çox çətindir. İndi kimsə ayrılan puldan yığıb maşın, ya ev alır?" **N.Cəfəroğlu QHT-lərə ayrılan pulların inqilab hazırlıqlarına yönəlməsi fikrini qəbul etmir:** "İnqilaba 2 milyard pul ayrılsa da, burda dünyasında inqilab olmayacaq. Çünki əsas şüur məsələsidir. Gərək şüurlarda dəyişiklik olsun. QHT-lərin pulu ilə, ümumiyyətlə, pulla inqilab etmək olmaz. Gərək partiyalar güclü olsun, millətə demokratiya, insan haqlarının nə olduğunu başa salsın. Biz 20-25 nəfərə insan haqları, ya qadınların problemləri ilə bağlı izahat işləri aparırıqsa, partiyaların təmas imkanları daha çoxdur. Ancaq partiyaları heç para ayırsın? Sadəcə, kimsə bu vəziyyətdən istifadə edir. QHT-lərin sayı çoxdur, onlar əgər 1 milyon Azərbaycan vətəndaşının yaşamasına dəstək verirsə, bu, elə hökumətin özünə də köməkdir".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə şəffaf fəaliyyət göstərdiklərini bildirdi:** "Başqa partiyalarla bağlı deyə bilmərəm, hər kəsin özünün maliyyə hesabatı var. Bizim maliyyə hesabatlarımız şəffaf şəkildə dərc olunur, Maliyyə Nazirliyinə də verilir, vergilər orqanlarına da, Sosial Müdafiə Fonduna da. İndiyə qədər heç bir QHT-dən bir qəpik də maliyyə yardımı almamışıq və bu istiqamətdə fəaliyyətimiz olmayacaq. Amma güman etmirəm ki, hansısa bir QHT ona gələn maliyyəni siyasi partiyaya verə. Belə bir faktlar varsa, bu, başqa məsələdir. Ancaq başqa partiyaların maliyyə mənbələri barədə dəqiq məlumatlı deyiləm".

**İ.Ağazadə hesab etmir ki, dövlət başçısının dedikləri növbəti həbslərin anonsudur:** "Çünki həbs etmək üçün anons verməyə ehtiyac yoxdur. Ola bilsin ictimai fikri bu istiqamətdə kökləmək və həbs olunmuş şəxslərin niyə həbs olunduğu və yaxud da hardan maliyyələşdiyi barədə informasiyaların prezidentin dilindən səslənməsi cəmiyyət üçün daha inandırıcı və etibarlı mənbə hesab olunur".

**Politoloq Qabil Hüseynli inanmır ki, ölkədə QHT-lər hansısa partiyalara külli miqdarda maliyyə yardımı etsin. Politoliq hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycanda QHT-lər ancaq öz ciblərini doldurmaq üçün çalışırlar:** "Mən müxalifət partiyasında çalışdığım zaman belə bir halın şahidi olmamışam ki, hansısa QHT partiyaya külli miqdarda maliyyə yardımı etsin. Son günlər ictimaiyyətdə adı hallanan nə Leyla Yunus, nə də Qubad İbadoğlunun partiyalara hansısa yardım etməsini görməmişəm. Qubad İbadoğlunun gəlirlərindən partiya üçün ayırdığını görməmişəm. Biz çalışdığımız vaxt vətəndaş cəmiyyəti ilə işləmişik və gəlirlərimiz partiya üzvlərinin üzvlük haqqı hesabına olub".

Politoloq ölkə başçısının Beyləqanda etdiyi çıxışına toxunaraq bildirib ki, Azərbaycanda xarici mənbələrə çalışanları tapmaq lazımdır: "İllərdir söylənilir ki, Azərbaycanda bəzi şəxslər xarici mənbələrə çalışırlar. Təbii ki, prezidentimizin də bu məsələyə toxunması hadisənin ciddiliyindən xəbər verir. Hesab edirəm ki, lazımi orqanlar xariclə əlaqəsi olan və bu əlaqədən neqativ məqsədlər üçün istifadə edən şəxsləri tapmalıdırlar. Ancaq hazırda söyləmək olmaz ki, hansısa partiya xaricdən qaynaqlanır. Çünki bütün partiyalar mətbuata açıqlamalarında bildirirlər ki, yalnız üzvlük haqları hesabına fəaliyyət göstərirlər". **Ölkədə QHT-lər hesabına inqilabların törədilməsi ilə bağlı səslənən fikirlərə də münasibət bildirən Q.Hüseynli deyib ki, Azərbaycanda bu mümkün deyil:** "Əvvəla, inqilab üçün külli miqdarda vəsait tələb olunur. Bizdə isə QHT-lərin əksəriyyətinin gəlirləri aşağıdır. Yalnız bir neçə QHT-lərin gəlirləri digərləri ilə müqayisədə nisbətən yüksəkdir. Onlara da dövlət tərəfindən nəzarət edilir. Hesab edirəm ki, müvafiq orqanlarımız ölkədə baş verən hansısa inqilabın qarşısını öncədən almaqda çətinlik çəksinlər".

❑ **Cavid TURAN**



# "Yeni Müsavat" "Qasid"i məhkəməyə verəcək

## Ələsgər Süleymanov: "Bu firma artıq ödəniş qabiliyyətini tamam itirib"

**Uzun müddətdir "Qasid" Mətbuat Yayımı Firması ilə "Yeni Müsavat" qəzeti arasında davam edən borc məsələsi pik həddə çatıb. Belə ki, "Qasid" firmasının qəzetə minlərlə manat borcu olmasına rəğmən son bir aydır heç bir ödəniş etmir.**

Bu barədə, eyni zamanda qəzet yayımı sahəsindəki durumla bağlı informasiya verən "Yeni Müsavat"ın baş direktoru Ələsgər Süleymanov bunları söylədi:

"Son bir ay bundan əvvələ qədər "Qasid"dən hər həftə cüzi də olsa satışdan gələn gəlirin müəyyən qismini ala bilirdik. Amma son 1 aydır ki, ümumiyyətlə heç nə ala bilmirik. Bu da o deməkdir ki, "Qasid" artıq ödəniş qabiliyyətini tamam itirib. Onlar bunu belə izah edir ki, köşkləri götürülür, satış imkanları məhdudlaşdırılır. Amma biz onlardan satışın niyə zəiflədiyini soruşmuruq, satılan qəzetin satış faizini istəyirik. Bunu da ödəyə bilmirlərsə, deməli, vəziyyət çox ümidsizdir".

**"Qasid"in qəzetlərin satışından əldə etdiyi gəlirləri xərcləmə obyektləri barədə də danışan baş direktor bunları dedi:**

"Onlar deyir ki, satışdan gələn pullarla reysə çıxan maşınlarının benzininin pulunu, öz işçilərinin maaşlarını ödəyirlər. Vəziyyətin bu həddə gəlib çıxması da bizi məcbur edir ki, onlara qəzet verməyi tamam dayandıraq. Amma nəzərə alanda ki şəhərdə qəzet yayımı onsuz da azdı və əldə yayım da yox həddindədir, bunu etmirik. Lakin tirajı həddindən artıq azaltmışıq, əvvəlki ilə müqayisədə bu göstərici 10 dəfəyə bərabərdir. Bu vəziyyət də təbii ki bizi qane etmir. Sonuncu dəfəki müraciətimiz zamanı isə onlar bizə izah etdilər ki, "Qasid"də əməkdaşlar arasında ixtisarlar olub və həmin şəxslərin haqq-hesabı qalıb. Bu məqamda onlar bizdən zaman istədilər ki, həmin işçilərlə haqq-hesablarını bağlaya bilsinlər. Bundan sonra redaksiyalara müəyyən ödənişlər edəcəklərini söylədilər. Biz də bunu kifayət qədər gözlədik. Yenə də ortada bir şey yoxdur. Son məqam olaraq qərara gəlmişik ki, onlarla üzləşdirmə aktı aparaq və məhkəməyə verək. Başqa yolumuz yoxdur, orda qalan vəsaitimizi hansısa yolla almalıyıq. Çünki bizim də verəcəklərimiz var".

**Yay aylarında qəzet satışında problemlər olduğunu bildirən Ə.Süleymanov dedi ki, alıcılarla yanaşı satıcıların da çoxu rayona, kəndə gedir:** "Həm də qəzetin satışı az olduğundan gələn gəlir də az olur, rentabelli olmur.

Ümidimiz onadır ki, artıq sentyabrdır, məzuniyyət mövsümü yekunlaşır və şəhərdə insanların sayı çoxalacaq, beləliklə, müəyyən mərhələdə satış düzələcək. Amma bu o demək deyil ki, keçən illə müqayisədə daha yaxşı olacaq. Vəziyyətin keçən ilkindən daha pis olacağını düşünürük. Çünki tendensiya göstərir ki, ildən-ilə vəziyyət daha da çətinləşir.

Gələn il isə parlament seçkiləri olacaq. Seçkilər ərəfəsində qəzetə maraq artdığından, tiraj yüksəlir. İndi əsas məqsədimiz odur ki, qəzeti gələn ilə çıxara bilək. Görək vəziyyət necə olacaq".

**Ə.Süleymanovun qəzetləri ağır vəziyyətdən çıxarmaq üçün təklifləri də var:**

"Qəzetlərin ağır durumu başlayanda, təxminən bu ilin əvvəllərində yayım işçiləri, qəzet redaktorları ilə bir toplantı keçirdik. Mən orda bir təklif verdim, amma həmin ərəfədə dəstəklənmədi. Təklifim ondan ibarət idi ki, qəzetin qiymətini artıraq. Hələ də gec deyil, biz bunu edə bilərik. Qəzetin qiymətini bir manat etməliyik. Bu zaman satıcılara da normal pul verə bilərik.

Nəzərə almaq lazımdır ki, tiraj get-gedə aşağı düşür. Bu iş də belədir ki, qəzetin tirajı çox olanda maya dəyəri aşağı düşür və qəzetin qiymətini aşağı etmək olur. Amma qəzetin tirajı az olanda məcbur qiymət artırılmalıdır.

İndiki halda qəzet satıcılarına bu işlə məşğul olmaq maraqlı deyil. Çünki az gəlir əldə edirlər. Amma vaxtilə bir çox adam qəzet satmaqla ailə dolandırıb.

Odur ki, qiymət artımına getsək, qəzetlərin bir çoxu bağlanmaq təhlükəsindən xilas olar və ömrü uzanar. Buna isə 1, 2 qəzet deyil, hamı qoşulmalıdır.

Bugünlərdə "Ayna Zerkalo" qəzetlərinin bağlanması bu proseslərin məntiqi yekunudur. Bunun davamı da gələcək.

Elə bizim özümüz üçün də qəzeti saxlamaq iqtisadi cəhətdən sərfəli deyil. Saytın hesabına qəzeti saxlayırıq. Amma elə qəzetlər var ki, saytı belə yoxdur. Bağlanmaq təhlükəsindədir və gec-tez bağlanacaq".

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014



# Bitdi köşə, şeir döşə

Samir SARI

**Bizim peşənin adamlarında bir ümumi minus var, məzuniyyətə çıxanda tam əksəriyyəti mediadan, xəbərlərdən aralı düşür, heç nə yazmır, oxumur (hətta kitab da), heç nə dinləmirlər. Görünür, normalı elə budur. Çünki onlar il on iki ay xəbərin içində qaynayırlar, bezirlər, ona görə əllərinə imkan düşəndə xəbərdən də, xəbərçilərdən də dincəlmək istəyirlər.**

Ancaq məzuniyyət bir göz qırpımında bitir, adam işə qayıdıb gəlir və məlum olur ki, onun dünyadan xəbər tutmadığı günlərdə ölkədə, regionda, dünyada xeyli hadisə baş verib.

Məsələn, mən özüm dünən işə gəlmişəm, "bismillah" deyib işə başlamamış, məlum olur ki, dünya qoyub getdiyim kimi deyil, dəyişib. Düzdür, bu ilk baxışdan bəlkə gözə çarpmır, amma mətbuatdan bir həftə aralı qalan adam fərqi anlaya bilir. Sən Rusiyanı Ukraynaya gizli şəkildə təcavüz edən yerdə qoyub getmişdin, qayıdıb görürsən ki, bay, artıq hərbi təcavüz açıq xarakter alıb, heç kim də heç nəyi danmır. Hərçənd ABŞ başda olmaqla Qərb dünyası hələ də Rusiyaya qarşı sanksiyaların gücləndiriləcəyindən danışır və istər-istəməz fikirləşirsən ki, görün, bunların ehtiyatda hələ nə qədər sanksiyası varmış, bir ucdan tətbiq edirlər, amma tükənmir.

Mən məzuniyyətə gedəndə İŞİD İraq və Suriyada baş kəsə-kəsə gedirdi, dönüklərin başını bir cür, kafirlərinkini başqa cür kəsirdilər. Qayıtmışam, bu xüsusda oxuduğum ilk xəbər budur ki, ABŞ-ın qırıcı təyyarələri İŞİD qüvvələrinə ağır zərbə vurub və onlar xeyli itkiyə məruz qalıb. Yenə adam fikirləşir ki, ey Sem dayı, sən ki İŞİD-in uşaqlarının xəncəri itilədiyini və baş kəsmək niyyətində olduğunu görürdün, ilk zərbəni onlar ilk başı kəsəndə vura bilməzdinmi, nədən kəsilmiş kəllələrdən qala qurulmasını gözlədin?

İndi gələk ölkəmizə. 10 gün əvvəl beləydi ki, jurnalistlər pis-yaxşı ordan-burdan tənqidi yazılar qələmə ala, müəyyən bostanlara daş ata bilirdilər. İndi ortada belə bir fakt var. Hökumət media kapitanlarını yığıb, xəbərdarlıq edib ki, daha bəsdir, özünüzü yığışdırın, ağlınıza gələni yazırsınız, gedin işinizdə dönüş yaradın, dünənki işinizə görə sağ olun, bugünkünə cavab verin, partiyamızın qərar və göstərişlərini əldə rəhbər tutun və sair və ilaxır.

İndi qalmışıq belə. Fikirləşirik ki, nə yazaq. *(Gördüyünüz kimi, bu yazı özü də nədən yazmaq barədə götür-qoy etmə prosedurunun qeyri-lirik gəzişmələridir).* Publisistikanın daşını atıb şeirəmi keçək. Mənim üçün problem yoxdur. Şeir yaza bilirəm. Amma sinnimin bu vaxtında durub əbədi şeir mövzularında *(bildiyiniz kimi, şair özünü nə qədər sıxsa da, mütləq üç şeirindən ikisi məhəbbət mövzusunda olacaq)* misralar qoşub, oxucuları özümüzə güldürəkmi? Onsuz da yaşı 60-a dirəndiyi halda hələ də "vəfasız yar"dan gileylənən, "sevgili dilbərlə vüsal eşqiylə çırpınan", "tənha qəlbin ovunması üçün nazlı dildarın geri dönməsi"ni təvəqqe edən xeyli şair var və onların əlindən Allahın "feysbuk"una girmək olmur. İndi biz də onlara qoşulaqmı?

Yoxsa hərbi diktaturanın vaxtında bağlanan qəzetlərdəki işini itirən, köşələri çıxan qəzetlərdəki sütunlardan çıxarılan ustad Əziz Nesin kimi gedib pəncərəyə şüşə salmaq, rəngsazlıq etmək və sair bu kimi ictimai faydalı işlərdə çalışmaqla məşğul olaq? Əslində belə də etmək olar, fəqət bir az vaxt lazımdır, gərək əvvəlcə usta yanında şəyird olasan, baxasan, öyrənəsən.

Oxucu deyəcək, mənə dəxli yoxdur, canınız çıxsın, missiyanızı yerinə yetirin, funksiyanız xalqa doğru-dürüst xəbərlər çatdırmaq, ona həqiqətləri, gerçəklikləri çatdırmaq deyilmi, zəhmət çəkin çatdırın.

Beləcə, müəlliflər odla su arasında qalmış durumdadırlar. Hökumət deyir, yazmayın, oxucu deyir, yazın. Oxucu hədələyir ki, sərt yazmasanız, qəzetinizi almayacağıq. Hökumət deyir, özünüz bilin, sərt yazsanız, oxucu qəzetinizi almayacaq, yəni ala bilməyəcək - çıxmaması səbəbindən.

Belə bir vəziyyətdə ən yaxşısı səbir edə-edə gözləmək, işdən sonra kafel-metlax qoymağı öyrənməkdir. Kara gələ bilər. Toxuculuğu öyrənmiş padşahın əsirlikdə toxuduğu xalçada saxlanıldığı yer barədə mesaj verərək canını qurtardığı barədə bir rəvayət də var.

# Eldar Namazovun susqunluğu...

## Qurultay ərəfəsində EL hərəkatı sədri siyasi aktivliyini azaldıb; son çıxışında politoloq Qərbin Azərbaycana sanksiyalarından danışıb

**Milli Şuranın sabiq üzvü, EL hərəkatının sədri, son prezident seçkilərinin əsas fəallarından olan Eldar Namazov öz hücrəsinə çəkilib.**

**EL sədri bu yay mövsümündə demək olar ki, heç bir fəallığı, çıxışları, müsahibələri ilə yadda qalmayıb. Onun çıxışları nəinki yadda qalmayıb, ümumiyyətlə, hörmətli Namazov mətbuatdan uzaq durmağa çalışıb.**



Eldar Namazov

Siyasətçinin bu mübhəm davranışlarının bir izahı olmasa da, ölkədə cərəyan edən proseslərin fövqündə onun hadisələrə münasibət bildirməməsi maraq doğurur.

E.Namazov nə telefon zənglərinə cavab verir, nə partiyaların tədbirlərində iştirak edir, nə də facebook səhifəsində baş verənlərə dair bir mövqe nümayiş etdirir. Ən azından son günlər Azərbaycanda fəalların, hüquq müdafiəçilərinin həbs olunması ilə bağlı bir çıxışı olmalıdır.

Ən maraqlısı budur ki, dövlətə xəyanətdə ittiham edilərək həbs olunan jurnalist Rauf Mirqədirov işinə görə istintaqda dindiriləndən sonra E.Namazov proseslərdən bir qədər də kənarda dayanmağa üstünlük verdi.

Daim "Yeni Müsavat"a geniş müsahibələr verən, bəyanatlar, çıxışlarla diqqət çəkən EL sədrinin bu susqunluğu anlaşılan deyil. Bəlkə də bilmədiyimiz şəxsi məsələlər var ki, Namazov bu cür ampluanı seçib.

Hər halda, bu sətirləri yazarkən yenidən hörmətli Namazovun mobil və şəhər telefonlarına zəng etdik. Amma zənglərə cavab verilmədi. Hətta mobil telefonuna növbəti zəngdə artıq söndürülmüşdü. Onun həm ölkədəki həbslərə, həm cəbhə xəttində baş verənlərə, habelə Soçi görüşünə, Qarabağ münaqişəsinə dair mülahizələri maraqlıdır.

Üstəlik, onu xüsusi demək lazımdır ki, EL hərəkatı qurultaya hazırlaşır. Qurultaya hazırlıq üçün təşkilat komitəsinin rəhbəri də məhz E.Namazovdur. Belə olan təqdirdə onun daha fəal görünməsi, müsahibələr verməsi zərurəti yaranıb. Ancaq onun mətbuatda, tədbirlərdə görünməməsinin sirr pərdəsi hələ də açılmayıb. Bütün hallarda E.Namazovudan geniş müsahibə zamanıdır. Ancaq müşahidəçilər də təsdiqləyirlər ki, EL sədri siyasi səhnədən çəkilib. Bu passivliyin əsl səbəblərini yəqin ki, özü daha yaxşı bilir.

**Sentyabrın 1-də moderator.az saytında onun kiçik bir açıqlaması yayımlanıb, o da politoloq kimi şərhi təqdim edilib. E.Namazov Azərbaycana qarşı Qərbin sanksiyasının mümkünlüyünü vurğulayıb:** "Azərbaycanda baş verən proseslərlə bağlı beynəlxalq ictimaiyyətdə yetərincə bilgi və qənaət var.

Əslində Azərbaycanda olduğu kimi tanınmış ziyalılara, vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı sərt davranışlar harda olsaydı, orada ciddi rezonans doğuracaqdı. Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasında Azərbaycanın adıçəkilən qurum qarşısında öhdəliklərini yerinə yetirməsi məsələsi rəsmi olaraq gündəliyə salınıb.

Sentyabr ayının əvvəllərində bu haqda sənəd Monitorinq Komitəsində müzakirədən keçiriləcək. Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçi təyin olundu. Avropa Şurası hesab edir ki, Azərbaycanda çoxlu sayda siyasi məhbuslar var. Odur ki, bütün bunları xarakterizə edəndə Azərbaycana qarşı sanksiyaların tətbiqi real görünür".

❑ E.SALAMOĞLU

# Putinin Qazaxıstanla bağlı dediklərinə tarixçi-alimdən ilginc cavab

## Qabil Hüseynli: "Qazax dövlətçiliyinin tarixi rus dövlətçiliyinin tarixindən ən azı üç dəfə qədimdir"

**Rusiya prezidenti Vladimir Putinin "Qazaxıstan heç vaxt dövlət olmayıb" bəyanatı Rusiyanın bu ölkə ilə bağlı ciddi planlar qurduğu barədə rəylərin yaranmasına gətirib çıxarıb.**

Bildirilir ki, Putin Ukrayna ilə məsələni "bitirmədən" indi də Qazaxıstanı şantaj edir, belə bir dövlətin boş yerdən yarandığına eyham vurur. Qazaxıstanın dövlətçiliyinin olmadığını iddia etməklə Putin nə demək istəyir, qazax dövlətçiliyi olubmu?

**Tarix elmlər doktoru, politoloq Qabil Hüseynli** qazax dövlətçiliyinin olmadığı barədə iddiaların əsassız olduğunu bildirdi: "Qazax xalqının dövlətçilik tarixi qədim Hun imperiyasına qədər gedib çıxır. Yəni indiki qazaxlar qəhrəman Atillanın övladlarıdır desək səhv etmərik. İndiki qazaxlar o zamanlar daha çox monqollar adlanırdılar. Onlar Avropanı fəth edən müzəffər ordusunun ön sıralarında gedən xalq idilər. Qazaxlar Çingiz xanın qoşunlarını öz sıralarında gedirdilər. O Çingiz xanın ki, qurduğu imperiya 300 ildən çox Rusiyanı öz hökmranlığı altında saxlayıb. Qazaxlar böyük Teymurləng dövlətinin dayaqlarından olublar. Faktiki olaraq qazax dövlətçiliyinin tarixi rus dövlətçiliyinin tarixindən ən azı üç dəfə qədimdir. Qazaxların tarixdə qoyduqları iz rusların qoyduqları izdən qat-qat dərinlərə gedib çıxır. Qazaxıstan dövlətçiliyinin olmadığını iddia edənlərin belə çıxır ki, bu tarixi faktlardan heç bir məlumatı, qazax xalqı haqqında da heç bir təsəvvürü yoxdur. Putin ya bunları bilmir, ya da qəsdən tarixi saxtalaşdırır".



Qabil Hüseynli

**Politoloq hesab edir ki, Vladimir Jirinovskinin Qazaxıstan ərazilərini işğal etmək çağırışının ardınca Putinin Qazaxıstan dövləti barədə belə bir açıqlama verməsi Rusiyanın məkrli planının olmasından xəbər verir:** "Putinin bəyanatında hədə elementi və Rusiyanın planları haqqında ipucları var. Rusiya nələrsə planlar qura bilər. Amma o planların istədikləri şəkildə həyata keçirilməsi real deyil. Qazaxıstan dünya tərəfindən tanınan oturuşmuş bir dövlətdir. Əgər Rusiya Qazaxıstana qarşı hər hansı hərəkətdə bulunarsa, bu, tamamilə Rusiyanın iflası demək olar. Özü də bu iflas o qədər sürətlə baş verə bilər ki, rusların özləri də heyrətə gələrlər. Qazaxıstan Rusiyanın dişi batmaz və batmayacaq. Onu da nəzərə almaq lazımdır ki, Qazaxıstanın başında Nursultan Nazarbayev kimi cəsarətli, eyni zamanda tədbirli bir siyasətçi dayanır. Qazaxıstan Ukraynadan da böyük dövlətdir və onun arxasında böyük türk dünyası dayanır. Qazaxıstan dünya ilə də əlaqələrini çox gözəl qurmuş bir dövlətdir".

**Q.Hüseynli Ukrayna məsələsində Moskvanın mövqelərinin getdikcə daralması prosesinin də Qazaxıstanla bağlı hansısa çirkin planı həyata keçirməsini mümkünsüz etdiyini vurğuladı:** "Artıq Rusiyanın özü tamamilə ifşa ərəfəsindədir. 3-5 sentyabrda Uelsdə NATO sammiti keçiriləcək və bundan sonra Rusiya ilə bağlı çox ciddi qərarlar qəbul ediləcək. Rusiya dünyadakı proseslərə qarşı olmağın, dünyadan təcridin nə demək olduğunu daha yaxşı anlayacaq. Belə durumda isə Qazaxıstanla bağlı hansısa planı olsa belə, onu həyata keçirə bilməyəcək".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014




# Ümid funksionerləri Gəncədə və Samuxda olub

**Avqustun 31-də Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə, İcra Aparatının rəhbəri Taleh Əliyev, sədrin informasiya və mətbuat üzrə müavini Elman Abbasov, Ali Məclisin üzvü Habil Qasımov Gəncə şəhərində və Samux rayonunda partiya fəalları və bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə görüşüblər. Görüşdə partiya funksionerləri ölkədə, regionda və dünyada baş verən ictimai-siyasi vəziyyət, partiyanın seçkilərə qatılmasının əhəmiyyəti və səbəbləri ilə bağlı məruzə ilə çıxış edib, mövzu ilə bağlı sualları cavablandırıblar.**



Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə telefon vasitəsilə Gəncədə keçirilən görüşə qatılıb, tədbir iştirakçıların salamlayıb, onlara öz tapşırıq və tövsiyələrini verib.

Gəncə şəhərində keçirilən görüş zamanı bir neçə gənc Ümid Partiyasına üzv yazılıb.

Qeyd edək ki, avqustun 23-də Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Şəkiyə, 24-də isə Qəbələyə səfər etmiş, partiya fəalları və bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə görüşmüşdü.

Partiya sədrinin və funksionerlərin bölgələrə səfəri davam edir.








Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir




## Cavad Heyət anılacaq

**Sentyabr ayının 4-də, saat 16:00-da Ümid Partiyasının qərargahında (Nərimanov rayonu, İsmayıl Hidayətzadə küçəsi 62, Montin bazarının yaxınlığında) avqustun 12-də əbədiyyətə qovuşmuş Güney Azərbaycanda milli şüurun yaşamasında müstəsna rolu olan "Varlıq" dərgisinin təsisçisi , böyük mütəfəkkir, tanınmış cərrah və filoloq doktor Cavad Heyətin anım mərasimi keçiriləcək. Mərasimdə Cavad Heyətin əvəzsiz fəaliyyətləri haqda tanınmış ictimai-siyasi və elmi simaların çıxışları olacaq.**

Tədbirə bütün Güney sevdalıları dəvətlidir!

## "Seymur Həzinin həbsi repressiyaların davamıdır"

**Ümid Partiyası Seymur Həzinin həbsi ilə bağlı bəyanat verib. Bəyanatda deyilir: "Azərbaycan hakimiyyəti ictimai-siyasi fəallara qarşı repressiyaları davam etdirir. Avqustun 29-da yaşadığı Ceyranbatan qəsəbəsində təxribatla üzləşən və daha sonra guya tanımadığı adamı döyməkdə şübhəli bilinərək saxlanılan "Azadlıq" qəzetinin şərhçisi və siyasət şöbəsinin müdiri, "Azərbaycan saatı" proqramının aparıcısı, AXCP Rəyasət Heyətinin üzvü Seymur Həzi avqustun 30-da təqsirləndirilən şəxs qismində məhkəmə qarşısına çıxarılıb. Abşeron Rayon Məhkəməsində ona qarşı Cinayət Məcəlləsinin 221.3 (silah və silah kimi istifadə olunan əşya tətbiq etməklə xuliqanlıq) maddəsi ilə ittiham irəli sürülərək, barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Seymur Həzi siyasi və jurnalist fəaliyyətinə görə dəfələrlə müxtəlif psixoloji, mənəvi və fiziki təzyiqlərə məruz qalıb. Baş verənlərlə bağlı hüquq-mühafizə orqanlarına şikayət etsə də, onun şikayəti tədqiqat aparılmadan kənara qoyulub. Təsadüfi görünən bir hadisə nəticəsində onun dərhal həbs edilməsi və barəsində 2 aylıq həbs-qətimkan tədbirinin seçilməsi hadisənin öncədən planlaşdırılmasına şübhə yaradır.

Ümid Partiyası Seymur Həzinin həbsini ictimai-siyasi aktivlərə qarşı repressiyaların davamı olduğunu bəyan edir və onun həbsini qəti şəkildə pisləyir, hakimiyyəti insan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı beynəlxalq təşkilatlar qarşısında üzərinə götürdüyü öhdəliklərə əməl etməyə, siyasi sifarişli təqib və həbsləri dərhal dayandırmağa, məhkəmələrdəki siyasi mühakimələrə son qoymağa, Seymur Həzi və digərlərinin barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsinə, istintaqın ədalətli və şəffaf aparılmasına çağırır".

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014



# Nostalgiya öpüşü

Zamin HACI
zaminhaci@gmail.com

**Partiya və hökumətimizin, YAP 6-cı qurultayının qarşımızda qoyduğu vəzifələrdən ruhlanaraq deməliyəm ki, ölkəmizdə aparılan dinc quruculuq işlərinə, müxalifətin aqressiv dağıdıcılıq işlərinə, milli satqınlara, qeyri-milli satqınlara son qoyulmalıdır.**

Mən tələb edirəm valyutadəyişmə məntəqələri də bağlansın! Milləti korlayan şeylərdən biridir. Camaat gedir orda milli manatımızı dollara, avroya, hətta rupi və pesoya dəyişdirir, nəticədə milli satqınlıq artır. Milli manatı xarici pula dəyişdirən insan sabah milləti satar. Sovet dövründə bu baxımdan, çox yaxşı sistem qurulmuşdu, dolları ancaq altdan, qara bazardan, Kubinkada tindən-filandan ala bilirdilər. Dollar əldə olmayanda insanlar vətəni satmaqda çətinlik çəkirdilər. O vaxtlar Ramiz müəllim Azərbaycan KP MK-da ideologiya şöbəsinin müdiri idi. Tarixi günlər idi.

Sözümün canı odur ki, dövlətçiliyin, milli satqınlarla mübarizənin mexanizmləri qurulmalıdır. Əmək qəhrəmanları tərənnüm edilməli, zərbəçi kollektivlər arasında sosializm... üzr istəyirəm, yapizm yarışları qoyulmalıdır.

İki beşillik planı bir beşillikdə yerinə yetirmək olmazmı? Olar. Biz istəsək hətta Səyavuş Novruzov ilk azərbaycanlı kosmonavt olaraq Yer orbitinə çıxar. Bir az skafandr ölçüsündə problem olacaq, ancaq Volodarski fabrikində məktəbli geyimi tikən zəhmətkeş toxucularımız üçün istənilən sədd keçilməndir. Təsəvvür edin, Səyavuş müəllim kosmosdan AzTV-nin canlı yayımı vasitəsilə Yer kürəsində yaşayan zülmçəkən xalqlara alovlu salam göndərir, onun gülümsər çöhrəsi qaranlıq səmada ulduz kimi sayrışır... Gözüm doldu, məni bağışlayın. *(Müəllif ağlayır - red.bull)*.

Mən birmənalı olaraq söz verirəm ki, yaxın gələcəyimizin "Yeni İskra" qəzetində, yaxud "TAZI" informasiya agentliyində çalışmağa hazıram! Gözümüzün qabağında, yaxın tarixdə olmuş şeylərdir, təzədən diriltməkdə qəti problem yoxdur. Məsələn, mən uşaq olanda, 70-ci illərin sonunda "Pravda" qəzetinin müxbirini canlı görmüş, onu üzüm bağlarına müşayiət eləmiş bir insanam. Bah-bah... Kişinin nə hörməti var idi... Orda oturma toz olar, burdan keçmə başına qoz olar... Raykom katibi köpək kimi darvazanın ağzında yatırdı ki, birdən müxbir yoldaşın ürəyi nəsə istəyər.

Yoxsa indi... İndiki jurnalistikanın bir "köpüklük" dəyəri qalmayıbdır. Raykom katibi cəhənnəmə, sıravi polis serjantı da jurnalistə kağız doldurulmuş kisə kimi baxır. İstəsən təpik vur, diyirlənsin. Hökumətə siyasi dustaq lazım olanda birinci jurnalistləri tutur. Döymək, öldürmək söhbətlərini hələ demirəm.

Bunun əsas səbəbkarı, günahkarı isə yuxarıda qeyd elədiyim kimi, jurnalistlərin özləridir. Götürüb qəzetdə hakimiyyətin yeyintisindən yazırlar. Nəyinə lazım, a başıxarab? Get müraciət elə, əfv ərizəsi yaz, sən də otur bir qıraqda, gəmir. Maşallah, o qədər belə ağıllı gənclərimiz vardır ki, insan gələcəyə optimist baxmağa məcbur olur.

Yaxud yazır ki, əsgər öldü. Niyə yazırsan, ay əli qurumuş? Qoy sirr qalsın. SSRİ vaxtında bəyəm Əfqanıstanda ölən 15 min əsgərin birindən yazırdılar? Qətiyyən. Çünki bütün raykomların uşaqları Qəndəhar, Cəlalabad altında duşmanlarla savaşırdı. İndi də elədir, hər il ölən 100 əsgərimizin minimum yarısı nazirlik və komitə sədrlərinin uşaqlarıdır.

Sözgəlişi, indi ölən əsgərlərin ailəsinə 11 min manat pul da verirlər. Hər halda, mən belə eşitmişəm. Bir ətək puldur. Buna görə dövlətə minnətdar olmalıyıq. İstəsələr verməzlər, ancaq vətənə xidmət yüksək dəyərləndirilir. 10 əsgər ölsə, bunun valideyn pulu 110 min manatdır. Təzə "Yaquar" avtomobilinin qiymətidir. Almırlar, pulu bölüb əsgər anaları arasında paylaşırlar. Minnətdarlığımızı sözlə ifadə edə bilmirik.

Halbuki etməliyik. Öyrənməliyik. O zaman mətbuatın da hörməti artacaq, Bərdəyə ezamiyyətə gedən hər bir müxbir azı iki şaqqa ətlə geri dönəcəkdir. Biri özünə, biri redaktora.

Nostaljimizi geri qaytardığı üçün hökuməti öpürəm.

***P.S.*** *Nostalgiya - qədim yunanca "vətənə qayıtmaq ağrısı" anlamını verir.*

**İstənilən müqayisə qüsurludur. Buna baxmayaraq, zamanı çatdıqda seçim etmək lazım gəlir.**

**Bu gün çoxları belə bir sual üzərində baş sındırır: Azərbaycanın əsas düşməni kimdir - Ermənistan, Rusiya, İran, yoxsa ABŞ? Bu suala ən müxtəlif cavablar tapmaq mümkündür. Azərbaycanın gələcək inkişaf istiqaməti barədə ən müxtəlif fikirlər səslənə bilər. Ən müxtəlif zamanlarda diplomatiyamızın səmti barədə ən gərgin müzakirələr aparılıb.**

Azər RƏŞİDOĞLU



# İŞİD, yoxsa Putin?

Lakin hazırda dünyada bir ümumi düşmən mövcuddur ki, bu da radikalizmdir. Dünya terror və radikalizmlə üzləşdiyi bir zamanda hamını birləşdirən bir dəyər mövcuddur - tolerantlıq.

Bəli, bu gün Rusiya prezidenti Vladimir Putin keçmiş SSRİ-ni bərpa etmək istəyir. Bu baxımdan, Azərbaycanı işğalla hədələyən Rusiya prezidenti şübhəsiz ki, ölkəmizə düşməndir. Lakin Putin təhlükəsi aralıq müddət üçün narahatlıq doğura bilər. İŞİD və ona bənzər terrorçu təşkilatlar isə daha qorxunc təsir bağışlayırlar. İnsanların beyinlərini yuyan, zombiləşdirən belə qurumların millətə vurduğu zərbələr isə on illər boyunca davam edə bilər.

Rusiyadan gələn təhlükəni görməzdən gələn, bunun Azərbaycan üçün uğurlu olduğunu fikirləşən kifayət qədər savadlı, vicdanlı və ağıllı vətəndaşımız var. Lakin ağlı başında olan, vicdanı, əxlaqı olan heç kəs İŞİD və ona bənzərlərin vəhşiliklərinə, vandalizminə, mənəviyyatsızlıqlarına, rəzilliyinə haqq qazandıra bilməz. İŞİD bir terror təşkilatıdır, bunun nə İslam dini ilə, nə hər hansı bir dinlə, nə də hər hansı bir millət və millətçiliklə heç bir əlaqəsi yoxdur. İŞİD bir terror, quldur təşkilatıdır, cinayətkar bir qurumdur. İnsanları kütləvi şəkildə qətlə yetirir, qarət edir, qadınları zorlayır, baş kəsir və sair. Bütün bunların hansı şüarlar altında keçirilməsi, "Allahu Əkbər" şüarlarının səsləndirilməsi və yaxud nə qışqırmalarının da heç bir əhəmiyyəti yoxdur. İŞİD birmənalı şəkildə və birbaşa cinayətkar dəstədir. Bu terror təşkilatı Rusiyadan da, digər ölkələrdən də daha qorxuludur.

Rusiyanı müdafiə edən insanların öz arqumentləri var, onunla razılaşmamaq mümkündür, lakin İŞİD-i hər hansı bir formada reklam edən adamların mənəviyyatı və əxlaqı böyük şübhə altındadır.

Cinayətkar bir dəstənin, siyasi məqsədlər üçün qurulan, quldurluğa və terrora qurşanmış bir təşkilatın hər hansı bir formada müdafiə olunması əxlaqsızlığın son həddidir. Sadəcə olaraq, Azərbaycanda bunun müdafiə edilməsinin səbəbi dini və etnik zəmində qarşıdurma yaratmağa cəhd edən insanların niyyətindən başqa bir şey deyil. Buradan da görünür ki, kimlərsə bu planı həyata keçirmək, ziyarətgahlara hücum etmək, pak Əhli-beyt (ə) övladlarının qəbirləri üzərində tikilmiş müqəddəs türbələri, ziyarətgahları dağıtmaq niyyətləri güdürlər. Bu məsələdə dövlət kifayət qədər ciddi və barışmaz mövqe qoymalıdır, bunların əməllərinin qarşısı dərhal alınmalıdır.

Rusiyanın "beşinci kolonu" ilə hansısa məsələdə razılığa gəlmək olar. Lakin Suriyada, İraqda vuruşan və İŞİD-in tərkibində olan, onlarla əlaqəsi olan hər hansı bir insana qarşı kompromis mövqe sərgilənmək qeyri-mümkündür.

Kreml perspektiv planda Azərbaycanı itirib və Bakı artıq heç bir zaman Moskvanın forpostu olmayacaq. Lakin İŞİD və oxşarları hələ öz sözlərini deməyiblər, onların törədə biləcəyi vəhşiliklər hələ qarşıdadır. Bu baxımdan, Putin, yoxsa İŞİD müqayisəsində istər-istəməz birinciyə üstünlük verməli olursan...

# Rusiya Ukraynaya 20 min canlı qüvvə yeridib

## Luqansk Hava Limanı uğrunda ağır döyüşlər gedir; hər iki tərəfdən tələfat var

**"Ukrayna ərazisində Rusiya Federasiyası Silahlı Qüvvələrinin ən azı dörd taktiki batalyonu var". Bu sözləri Kiyevdə keçirdiyi brifinqdə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının informasiya mərkəzinin rəhbəri Andrey Lısenko deyib.**



Lısenko bildirib ki, son 3 gündə Rusiya Ukraynaya 10-20 min əsgər göndərib: "Bu haqda kəşfiyyat məlumatları var. Rusiya davamlı olaraq Ukrayna ərazisinə canlı qüvvə yeridir. Bütün batalyonlar zirehli texnika ilə möhkəmləndirilib. Əldə etdiyimiz bilgiyə görə, indi Rusiyanın Ukrayna ərazisindəki ən böyük hərbi qüvvələri Novosvetlovka, Starobeşevo-Novokaterinovka və Şerbak-Markino rayonlarındadır".

Sentyabrın 1-də Ukrayna antiterror qüvvələrinin hərbçiləri ilə Rusiya Silahlı Qüvvələri arasında Luqansk Hava Limanı uğrunda döyüşlər başlayıb. İlkin xəbərlərə görə, hər iki tərəf ağır itkilər verib. Ukrayna Müdafiə Nazirliyinin yaydığı xəbərlərdə bildirilir ki, sentyabrın 1-də 7 hərçi həlak olub, 25 əsgər yaralanıb. Əsas döyüşlər Ukrayna desant qüvvələri ilə Rusiyanın tank batalyonu arasında olub. Ukrayna SQ-nin Baş Qərargahının əmri ilə Ukrayna əsgərləri hava limanından geri çəkilib. Unian.net Ukrayna Müdafiə Nazirliyinə istinadən yazır ki, hava limanına havadan hücum planlaşdırılır: **"Hər iki tərəfin ağır itki verdiyi döyüşlər davam edir. Rusiya Silahlı Qüvvələrinin dəqiq həmləleri döyüşü professional hərbçilərin apardığını deməyə əsas verir. Ukrayna hərbi qüvvələri əraziyə 1500 canlı qüvvə cəlb edib. Qarşı tərəfdən ən azı 2000 nəfərin döyüşdüyü ehtimal edilir. Səhər saatlarında döyüşlər daha da şiddətlənib. Ukrayna Luqansk Hava Limanını terrorçulardan təmizləmək üçün geniş hərbi əməliyyatları davam etdirir"**.

Ukraynanın digər qaynaqları isə xəbər yayıb ki, Ukrayna hərbçiləri Luqansk Hava Limanını geri almaq əməliyyatına başlayandan az sonra 1500 hərbçi Rusiya qoşunlarının mühasirəsinə düşüb. Mühasirəni yarmaq üçün Ukrayna ordusu 4 saata yaxın döyüşüb. Tərəflər ağır artilleriyadan, piyadaların döyüş maşınından istifadə edib. Rusiyanın tank batalyonunu zərərsiz hala gətirən Ukrayna Silahlı Qüvvələri mühasirəni 7 itki, 25 yaralı ilə yara bilib.

Ukrayna Müdafiə Nazirliyinin sözçüsü Andrey Lısenko onu da deyib ki, hərbi əməliyyatlar başlanandan 765 terrorçu məhv edilib. Son 3 gündə terror qruplaşmaları Rusiya Silahlı Qüvvələri ilə bərabər Ukrayna ordusuna qarşı 37 hücum təşkil edib. Əsas döyüşlər Donetsk və Luqanskda keçirilsə də, ara-sıra Donbasda da silahlı toqquşmalar baş verib.

Türkiyə şirkəti Ukraynaya hərbi tibb avadanlıqlar göndərəcək. Bu haqda razılıq iki ölkənin səhiyyə nazirlikləri arasında aparılan danışıqlarda əldə olunub. Ukrayna Ali Radasının İnsan Haqları Komitəsinin üzvü Valeriya Lutkovskayanın sözlərinə görə, Türkiyənin səhra hospitalları üçün avadanlıqlar istehsal edən şirkətinin rəhbəri Hacı Bayram Polat da danışıqlarda iştirak edib.

Artıq Donbasa 150 hərbi sanitar və çox sayda səyyar hospital göndərilib: **"Bundan başqa, Türkiyə şirkətləri ilə terrorçulardan azad edilən Slavyansk və Kramatorskdakı sosial infrastrukturun bərpa edilməsi üçün anlaşma əldə edilib. İlk sırada uşaq bağçalarının, məktəblərin və xəstəxanaların bərpa edilməsi qərara alınıb"**.

❑ Aygün MURADXANLI

# Türkiyənin Azərbaycan siyasəti dəyişməyəcək

**Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğan ilk xarici rəsmi səfərini Azərbaycana edir. Ötən gün Kiprə gedən Türkiyə lideri sentyabrın 2-də Azərbaycana gələcək. Türkiyə prezidentinin Bakıya səfəri zamanı keçirəcəyi görüşlər, müzakirə olunacaq məsələlər barədə artıq mediada müəyyən iddialar, ehtimallar mövcuddur.**

“Atlas” Araşdırmalar Mərkəzinin Türkiyə-Azərbaycan münasibətləri, Türkiyə prezidentinin Bakıya edəcəyi səfərlə bağlı hazırladığı analitik məqalədə iki ölkə münasibətləri ilə bağlı bir sıra məqamlara toxunulub. Təhlildə qeyd olunur ki, Ərdoğanın baş nazir olduğu 12 ildə Türkiyə-Azərbaycan münasibətləri xeyli inkişaf edib. Siyasi təmaslarla yanaşı, ticarət dövriyyəsi artıb, Azərbaycan Türkiyəyə milyardlarla dollar investisiya qoyub, Azərbaycan qazının Türkiyə üzərindən Avropaya daşıyacaq Transanadolu layihəsi ilə bağlı sənəd imzalanıb, ayrıca gələn il Bakı-Tiflis-Qars dəmir yolu işə düşəcək. “Ərdoğanın dövründə iki ölkə arasında hərbi əməkdaşlıq da inkişaf etdi, birgə silah istehsalına başlanıldı, birgə hərbi təlimlər həyata keçirildi. Ərdoğanın prezidentliyi dövründə bu istiqamətlər əvvəlkitək inkişaf etdiriləcək”.

Təhlildə eyni zamanda Ərdoğanın Bakı səfərində Gülən camaatına qarşı aparılan mübarizə mövzularının müzakirə olunacağı qeyd olunur. Bildirilir ki, Ərdoğan prezident olduğu dönəmdə də Fətullah Gülən tərəfdarlarına qarşı mübarizəsini davam etdirəcək. “Çünki Gülən hərəkatı hazırkı Türkiyə müxalifətindən güclüdür və Ərdoğanın əsas rəqibidir. Ərdoğan üçün Azərbaycan birinci sıradadır” - deyə analizdə qeyd edilir.

Qeyd edək ki, müşahidəçilərə görə, Türkiyənin yeni prezidentinin seçkidə qələbə qazandığı gün “balkon çıxışında” da Gülən camaatını “unutmaması”, “Pensilvaniya qrupu” adlandırdığı camaata qarşı mübarizəni davam etdirəcəyini bəyan etməsi Azərbaycan üçün də bir mesajdır. Bu baxımdan ehtimal olunur ki, Bakıya səfəri zamanı Türkiyə prezidenti “camaat”a məxsus media orqanları və mərkəzlərin qapadılmasını tələb edəcək.

Yeri gəlmişkən, ötən gün Xəzər TV-nin Xəbərlər Departamentinin rəhbəri İbrahim Ünlübostan və bir sıra şəxslər tutduqları vəzifədən azad ediliblər. Ünlübostanı bu vəzifədə İnqilab Məmmədov əvəz edib. İ.Ünlübostan axar.az-a bu məlumatı təsdiqləyib. “Bəli, məlumat doğrudur, artıq Xəzər TV-də çalışmayacağam. Türkiyədən gəlmişdim, indi də ölkəmə geri qayıdıram” - deyə o bildirib. Ərdoğan prezident qismində Azərbaycana ilk səfərindən siyasi düşərgə ciddi bir dəyişiklik gözləmir. Onun Bakı səfəri çərçivəsində yenə də müxalifətlə, ümumiyyətlə, rəsmi qurumlardan kənar görüşləri nəzərdə tutulmur.



**İsa Qəmbər:** “Türkiyənin yeni prezidentinin ilk səfərini Azərbaycana etməsi çox məntiqli və müsbət haldır”



**İqbal Ağazadə:** “Ərdoğanın müxalifətlə görüşəcəyini güman etmirəm”

**Müsavat Partiyasının başqanı İsa Qəmbər** deyir ki, 90-cı illərdə Türkiyənin rəhbərləri - prezident, baş nazir, xarici işlər naziri Bakıya gələrkən aparıcı müxalifət liderləri ilə də görüşsələr də, sonradan bu ənənə aradan qalxıb, 2000-ci illərdən sonra bu ənənə davam etdirilməyib. Ərdoğanın Bakı səfərini yüksək qiymətləndirən Müsavat başqanı Türkiyə tərəfindən görüş üçün hər hansı dəvətin olmadığını bildirdi: “Yeni prezident kimi Ərdoğanın ilk səfərini Azərbaycana etməsi çox məntiqli və müsbət haldır. Bizimlə görüş barədə hələlik müraciət yoxdur. Olsa, məmnuniyyətlə görüşərik. Türkiyəyə son səfərimdə digər partiyalarla yanaşı, AKP-nin də rəhbərliyinə daxil olan şəxslərlə görüşmüşdüm. Türkiyə-Azərbaycan münasibətlərinin qurulmasında və inkişafında demokratik qüvvələrin, Müsavat Partiyasının böyük xidmətləri var. Biz bu əlaqələrə böyük önəm veririk və bunu davam etdirmək əzmindəyik”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə də Ərdoğanın müxalifətlə görüşəcəyini gözləmir. Onun qənaətincə, Türkiyə hökuməti bir qayda olaraq Azərbaycanda iqtidarla əlaqə qurur:** “Düşünürəm ki, bu dəfə də ənənəvi görüş olacaq. Çünki bundan əvvəl də eyni hakimiyyətin nümayəndəsi olan Abdulla Gül dəfələrlə Azərbaycana səfər edib, ancaq müxalifətlə görüşməyib. Eyni zamanda Ərdoğan baş nazir kimi Bakıya səfərləri zamanı müxalifətlə görüşməyib. Bu baxımdan prezident seçkilərindən sonra Bakıya səfəri zamanı Ərdoğanın müxalifətlə görüşəcəyini güman etmirəm”.

**İqbal Ağazadə Ərdoğanla görüş üçün müxalifətin özünün müraciət etməsinə də ehtiyac görmür:** “Çünki Türkiyə siyasətindən Azərbaycana baxış bir az fərqlidir. Türkiyə üçün Azərbaycanda iqtidarda kimin olmağı o qədər də önəmli deyil. Onun üçün Azərbaycan iqtidarı önəmlidir. Bu baxımdan da Türkiyə hakimiyyətləri münasibətlərini Azərbaycan iqtidarları ilə qurur. İqtidarlardan asılı olmayaraq Türkiyə-Azərbaycan münasibətləri, Türkiyənin Azərbaycana münasibəti dəyişmir. Ona görə də görüşün nəyisə dəyişəcəyini güman etmirəm”.

❑ **KƏNAN**



Rəcəb Tayyib Ərdoğan

## Bakıdan sonra İrəvana?!

# Ərdoğanın Ermənistan dilemması

Bu dilemma xətdəki qəfil marşrutu da zəruri edə bilər; top indi Türkiyənin meydanına atılıb; oradan kimə və nə vaxt ötürüləcək, yeni prezidentin “yubiley” “Qala qurması” iki qardaş ölkə adına uğurlu olacaqmı?..

**Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın prezident Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasiminə qatılması Ermənistanda və Azərbaycanda birmənalı qarşılanmadı. İki ölkə arasında diplomatik münasibətlərin olmadığı halda Nalbəndyanın mərasimdə iştirakını yersiz sayanlar da oldu, normal hesab edənlər də. O mənada normal ki, qonşular əbədi düşmən kimi qala bilməzlər.**

Ermənistanda bu jestin Serj Sərkisyanla deyil, hətta onun ağası Rusiyanın diktəsi ilə bağlı olduğunu iddia edənlər belə tapıldı. Türkiyədə və Azərbaycanda isə olaya ən məntiqli yanaşma belə oldu ki, Ermənistandan fərqli olaraq qardaş ölkə böyük dövlətdir və böyük dövlətlər də cılız hisslərlə yaşamaz, böyük dövlətlərin böyük, uzaqgedən də siyasəti olar. Hər halda, Türkiyə regional supergüc kimi bu statusu daşımağı haqq edib, razılaşaq.

Nalbəndyanın Türkiyə səfəri isə inauqurasiya mərasiminə qatılmasından qat-qat çox prezident Ərdoğana təqdim elədiyi dəvət-məktubun məzmunu ilə önəm daşıyır. İş ondadır ki, məktubda Türkiyənin dövlət başçısı “erməni soyqırımı faktına bütün dünya ilə birgə şahidlik eləmək” üçün İrəvana dəvət edilir.

Yəni faktiki, təhqiramiz bir məktub: bir yandan guya Türkiyəyə saygı əlaməti olaraq rəsmi dəvət Ermənistan yetkilisi tərəfindən şəxsən təqdim olunur, o biri yandan da məktubda Türkiyənin “genosid” törətdiyi bəri başdan onun boynuna qoyulur. Başqa sözlə, məktuba müsbət cavab dolayısıyla oradakı məkrli tezisə haqq qazandırmaq kimi çıxır. Təsadüfi deyil ki, erməni siyasətçilərindən biri bunu elə belə də qiymətləndirib: Ərdoğan 2015-ci ilin 24 aprelində İrəvana gələrsə, bu, “soyqırımın” tanınması demək olacaq. Başqa bir erməni politoloq isə daha uzağa gedərək deyib ki, Türkiyə “genosidi” tanımayınca heç vaxt Avropa Birliyinə qəbul edilməyəcək.

Məsələ bu dərəcədə dolaşıq. Türkiyənin yeni prezidenti yeni səlahiyyətlərinin icrasına başlar-başlamaz çətin bir dilemma, mürəkkəb siyasi tapmaca ilə üzləşib. Eyni zamanda bir az da öz dilinin bəlasına düşüb - cari ilin aprelində baş nazir qismində erməni xalqına məlum və qalmaqallı başsağlığı göndərməklə.

Vəziyyəti qəlizləşdirən amil həm də türk-erməni münasibətlərinin xeyli dərəcədə Azərbaycandan asılı olmasıdır. Hərgah, Bakı da yeni dövrdə Türkiyəyə qarşı çağırışların ciddiliyini anlamamış deyil. Azərbaycan rəhbərliyi yəqin ki, onun da yaxşı fərqindədir ki, iki qardaş ölkə üçün bu cür taleyüklü məsələlər spontan şəkildə, təhdidlər və ultimatumlarla artıq çözülməz, ölçülü-biçili, ortaq və ən optimal qərar şəklində, ən əsası, səbirlə həllini tapar.

Bəs Ərdoğan gələn il İrəvana gedəcəkmi, yoxsa o da öz əvəzinə xarici işlər nazirini yollayacaq, hansı ki, belə məsələlərdə prezident qədər söz sahibi deyil?

Suala cavab verməyə cəhd etməzdən öncə daha bir məqama toxunmaq gərəkir. Siyasət əlbəttə ki, incə sənətdir, lakin burada çılğınlığa, emosiyaya şahmatdakı kimi yer yoxdur. Xüsusən də böyük siyasətdə. Fakt budur ki, top artıq Türkiyənin meydanındadır. Türkiyə istəsə də, istəməsə də Qərb dünyası, ələlxüsus 2015-ci il İrəvan “yubileyi”ndə dövlət katibi səviyyəsində iştirakı anons edilən *(hələ ki rəsmi təsdiqlənməyib)* ABŞ Ankaranın hansı qərar verəcəyini həssaslıqla izləyəcək.

Yeri gəlmişkən, çox maraqlıdır ki, dövlət katibi Con Kerrinin İrəvana gəlmək istəyi ilə bağlı xəbər Ermənistanın Türkiyə prezidentinə dəvət göndərməsi, ardınca isə Nalbəndyanın məktubla Ankaraya yollanması ilə eyni vaxta təsadüf edir. Bəzi müşahidəçilərə görə, bu, Türkiyəni məsələdə daha pozitiv mövqe tutmağa və “Futbol diplomatiyası -2" çərçivəsində yeni türk-erməni dialoquna daha asan kökləməyə həvəsləndirmək üçün düşünülmüş gedişdir. Çünki Amerika üçün bu dialoqun əhəmiyyəti Rusiyanın öz qonşularına qarşı avantürist siyasəti fonunda getdikcə daha böyük önəm daşıyır. Ermənistanı Rusiyanın, ilk növbədə də Putinin Avrasiya layihələrinin cəngindən qurtarmaq, beləliklə, Güney Qafqazı Kremlin təsir zonasından təhlükəsiz məsafəyədək uzaqlaşdırmaq üçün sonuncu fürsət kimi baxır.

Türkiyənin topu tezliklə Ermənistanın meydanına qaytaracağını söyləmək isə kifayət qədər qəliz görünür. İstisna deyil ki, Ərdoğan ağıllı siyasətçi kimi və milli maraqları əsas götürərək, məktuba olumlu cavabı maksimum - uydurma “soyqırım”ın ildönümü günündək yubadacaq. Ki, həm özünü, həm də Türkiyə dövlətini erməni lobbisi və Qərbin güclənməkdə olan təzyiqlərdən sığortalasın.

Cavabı indi, dərhal vermək əlbəttə ki, bəri başdan Türkiyə və onun prezidenti üçün manevr imkanlarını daraltmaq demək olardı. Cavabın indi bəyan edilməsi ya Azərbaycan və Türkiyə toplumunun, ya da Qərbin qınağına gəlmək və Ermənistana əlavə antitəbliğat şansı vermək anlamına gələrdi. Ancaq bütün hallarda cavab Bakısız verilməyəcək, hətta Bakıdan veriləcək. Bu birmənalıdır.

Yəni ki, Ərdoğan İrəvana getsə də, Bakıdan gəlib gedəcək. Ankaradan, Vaşinqtondan, yaxud Brüsseldən yox. Amma gedəcəkmi? Hələ ki o Bakıya gəlir, növbəti dəfə, bu gün...

❑ **Siyasət şöbəsi**



# Dini Komitə ilə QMİ arasında "ehsan qalmaqalı"

## **Mübariz Qurbanlı:** "Yas mərasimləri hansısa israfçılığa gətirib çıxarmamalıdır"

## **Rəhimə Dadaşova:** "Bu iş məcburi ola bilməz..."

**Xəbər verdiyimiz kimi, hökumət uzun illər Azərbaycanda ictimai bəlaya çevrilən israfçı mərasimlərdən qurtulmaq üçün məcburi qaydalar tətbiq etməyə başlayıb. Artıq ölkə üzrə yerli icra orqanlarına yas məclislərinin sadə şəkildə, yemək süfrələri olmadan təşkil olunması ilə bağlı göstəriş verilib. Bununla bağlı ərazilər üzrə din xadimləri, yerli icra qurumlarına tapşırıqlar verilib.**

Ötən gün məlum olub ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov şəhərdə təmtəraqlı yas mərasimlərinin keçirilməsinə qadağa qoyub. Tapşırığa əsasən, MİS əməkdaşları ərazilərindəki xeyir-şər evlərini nəzarətə götürüb. Yas mərasimlərində yemək verilməsi qadağan edilib.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı** Azərbaycanda yas məclislərinin keçirilməsi ilə bağlı tənzimləmələrə toxunub. Komitə sədri bildirib ki, Azərbaycanda yas mərasimləri həddini aşmamalı, israfçılığa yol verilməməlidir: "Yas mərasimləri ilə bağlı Azərbaycanın milli adət-ənənələri var. Milli adət-ənənələrimiz zaman-zaman mövcud olub, lakin onlar ehkam deyil, adət-ənənələr də zamana uyğun olaraq dəyişikliyə məruz qalır və bu da təbii prosesdir. Bunlar dinimizin tələblərinə uyğun edilməlidir". **Komitə sədri qeyd edib ki, QMİ Qazılar Şurasının ayrıca fətvası var və orada da yas mərasimlərində israfçılıq edilməməsinə çağırış olunub:** "Ümumiyyətlə, bu məsələ ictimaiyyətin və medianın diqqət mərkəzindədir. Mən əminəm ki, ictimaiyyət də, media da bu yöndə düzgün təbliğat aparacaq və biz yas mərasimlərini həm milli adət-ənənələrə uyğun, həm də hansısa israfçılığa yol vermədən keçirməyə nail olacağıq".

**Əslində yas məclislərində israfa yol verilməsi, bahalı süfrələrin təşkil olunmasına son qoyulması ilə bağlı çağırışlar daha əvvəllər də səslənib. Ancaq indi o da məlum olub ki, hökumətin rəsmi qadağasına baxmayaraq QMİ-nin mərasim zallarında hələ də yemək süfrələri açılır. Bunu "Yeni Müsavat"ın "Təzəpir" məscidinin nəzdindəki mərasim zalında olan əməkdaşı da müşahidə edib. QMİ-nin mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, QMİ ehsan məclisləri ilə bağlı göstəriş vermək səlahiyyətində deyil:** "Biz dini idarə olaraq yalnız tövsiyələr verə bilirik. "Təzəpir" məscid kompleksində yerləşən ehsan zalları ayrı-ayrı iş adamlarına icarəyə verilib. Biz onların işlərinə qarışa bilmirik. Biz orda divara yazıb vurmuşuq. Böyük hərflərlə QMİ Qazılar Şurasının ölü sahibi üçün vacib olan və olmayan əməllər qeyd olunub. İsrafla bağlı məsələlər qeyd olunub. Bizim fikirlərimiz orda yazılıb. Onlara da bu məsələlər izah olunur. Sadə ehsan süfrəsi təklif olunur. Ancaq məclis sahibi əlavə yemək sifariş edəndə artıq mərasim zallarını işlədənlər bundan imtina edə bilməz. Bu iş məcburi ola bilməz".

**R.Dadaşova deyir ki, israfçı mərasimlərdən imtinaya çağırışlar olsa da, kimsə konkret olaraq qabağa düşüb birinci olmaq istəmir:** "Təəssüf ki, əmələ gələndə heç kim birinci olmaq istəmir. Biz qadağa qoysaq da bunun nəticəsi olmayacaq. Bunun üçün insanların fikirləri dəyişməlidir. İnanıram ki, hökumətin bu yöndə qərar verməsi müsbət nəticə verəcək". **QMİ yetkilisinə görə, qadağanın aradan götürülməsi zaman alacaq, çünki insanlar illər ərzində davam edən adətlərdən imtina etmək istəmir:** "Ümumiyyətlə, adət-ənənələr ətalətli sahə hesab olunur, burda dəyişiklik aparmaq çətindir. Ancaq indiki şəraitdə QMİ-nin bu yöndə çağırışları, eyni zamanda hökumətin bu istiqamətdə addımları bu adətlərdən imtina üçün zəmin yaradır. Bu sahədə ildırım sürətilə hansısa nəticəyə nail olmaq çox çətin məsələdir".

❑ KƏNAN

# "Azərbaycan Ermənistanla müharibəyə tam hazırdır"

## **Vəfa Quluzadə:** "Elə bir vəziyyət yarana bilər ki, müharibə qaçılmaz olar"

**Son zamanlar Azərbaycan və dünyada ciddi proseslər gedir. Xüsusilə qonşu Rusiya dövlətinin Ukrayna və bir sıra dövlətlərə qarşı apardığı işğalçılıq siyasətinin günbəgün artması buna bariz sübutdur. Hər keçən gün dünyada gündəmi dəyişəcək önəmli hadisələr baş verir.**

Özlərini İraq Şam İslam Dövləti adlandıran silahlıların İraqda həyata keçirdikləri hücum əməliyyatlarında günahsız türkmənlərin qətlə yetirilməsi və son olaraq, avqustun əvvəlində Azərbaycan-Ermənistan arasında baş verən 3 günlük müharibə bir sıra mətləblərdən xəbər verir. Hətta bəzi politoloqlar III Dünya müharibəsinin başlayacağının anonsunu verməyə başlayıblar.

**Tanınmış politoloq Vəfa Quluzadənin** baş verənlərlə bağlı fikirlərini öyrəndik. O hesab edir ki, hazırda Azərbaycan Rusiya ilə münasibətlərdə doğru siyasət yürüdür: "Hesab edirəm ki, Azərbaycan Rusiyaya qarşı düzgün siyasət aparır. Lakin Azərbaycanın imkanında deyil ki, Rusiya imperiyasının aqressivliyindən bir çarə tapsın. Bir misal deyim. Mixail Qorbaçov, Boris Yeltsin və Vladimir Putin tamam başqa-başqa siyasətçilərdir. Lakin Qorbaçovun vaxtında azərbaycanlıların Ermənistandan deportasiyası oldu. Qarabağ müharibəsi başladı. Yeltsinin dövründə Azərbaycan torpaqları işğal oldu. Ermənistana külli miqdarda silah-sursat göndərilərək, ermənilər silahlandırıldı. İndi isə Putin həmin siyasəti davam etdirir. Bütün bunlar ondan xəbər verir ki, bunlar nə Qorbaçov, nə Yeltsin, nə də Putinin işi deyil. Bunlar rus imperiyasının mahiyyətidir. Sovet dövründə 1920-ci ildə müstəqil Azərbaycan dövlətini yeni gəlmiş SSRİ dağıtdı. Zəngəzur Ermənistana verildi. Dağlıq Qarabağda qondarma muxtariyyət yaradıldı. Burada Azərbaycan heç nə edə bilməzdi. Cəmiyyət arasında sadəlövh fikirlər gəzir. Bu da Azərbaycan cəmiyyətinin Qarabağ probleminə son qoyulması arzusundan irəli gəlir. Bəziləri düşünür ki, Rusiya və Ermənistana pul verərək, torpaqları pulla alaq. Bəziləri deyir ki, hücum edək Ermənistanı dağıdaq. Düşünmürlər ki, Ermənistan Rusiyanın bir quberniyasıdır. Sadəcə, ona ümid etməliyik ki, Azərbaycan adlı dövlət 22 ildir var, bütün dünya tərəfindən dəstəklənir. Eyni zamanda rus imperiyasının süqutu artıq göz qabağındadır. Bu imperiya süqut etməyincə, biz təhlükədən qurtulmayacağıq. Məsələ bundan ibarətdir".

**Politoloq Rusiyanın işğalçılıq siyasətinin qarşısının alınması yollarından da danışdı:** "Rusiyanın başına kim gəlirsə gəlsin, bu imperiyanın siyasətini aparmalıdır. Onun başına heç zaman mütərəqqi bir şəxs gələ bilməz. Bu dəqiqə Rusiya ilə Qərb arasında demək olar ki, müharibə gedir. Sanksiyalar tətbiq olunur, Rusiyanın siyasəti diplomatik və siyasi baxımdan ciddi surətdə tənqid edilir. Rusiyanı təcrid etmək siyasəti aparılır. Bunların nəticəsinin necə olacağını zaman göstərəcək. Bir şeydə tam əminəm. Mədəniyyət baxımından hər bir imperiya çökür. Əbədi imperiya yoxdur. Dünyanın ən güclü imperiyası olan Böyük Britaniya çökdü. Müsəlman aləmində ən böyük imperiya olan Osmanlı çökdü. Ümid edirəm ki, bu tendensiya rus imperiyasını da çökdürəcək. Osmanlı imperiyası çöksə də, türk xalqı qaldı. Günü-gündən çiçəklənir. Hesab edirəm ki, Rusiya imperiyasından ən çox zülm çəkən rus xalqının özüdür. Daima bu xalqı müharibə və ölümə sürükləyirlər. Əvəzində də heç nə verməyiblər".



Vəfa Quluzadə

**Vəfa Quluzadə III Dünya müharibəsinin baş verə biləcəyi ehtimallarından söz açdı:** "Hesab edirəm ki, dünya müharibəsi olmamalıdır. Birincisi, Rusiya bu müharibəyə hazır deyil. Rusiya yalnız özünün nüvə dövləti olduğunu qabardır. Bununla Qərbi qorxudur. İstəyir ki, Qərb onun işğalçılıq siyasəti ilə barışsın. Lakin Qərb də geri çəkilən deyil. Çünki indiki vəziyyətdə Qərb geri çəkilsə, bundan sonra Rusiyanın qarşısında dayana bilməyəcək. Qərb axıra qədər bu iqtisadi müharibəni aparacaq. Artıq iqtisadi müharibə gedir. Amma bu müharibənin açıq müstəviyə keçməsini heç kəs istəmir. Nə Rusiya, nə də Qərb. Elə bir vəziyyət yarana bilər ki, müharibə qaçılmaz olar. Bu məsələ hələ ki açıq alır. Heç kəs bunun proqnozunu bu saniyədən verə bilməz".

**Politoloq İraqda türkmənlərin qətlə yetirilməsinə və türk dünyasının bu məsələdəki susqunluğuna da toxundu:** "Kərkükdə türkmənlərin çox olduğu yerdə ən zəngin neft yataqları var. Bax ona görə də orada belə proseslər baş verir. İraqda kürd dövlətinin yaradılması prosesi gedir. Bütün bunlar göz qabağındadır. Artıq Almaniya kürdlərin silahlı qüvvələrinə silah-sursat verməklə bağlı qərar qəbul edib. Dünyada böyük qlobal problemlər gedir. Burada Türkiyə nə edə bilər? Humanitar yardım göstərməlidir və göstərir. Gedib orada müharibə edə bilməz. Bunlar çox ciddi məsələlərdir. Emosional şəkildə bunların hamısını şərh etmək düzgün nəticələr verməz. Görək hadisələr necə inkişaf edəcək. Səddam Hüseyn diktator idi. İraqdakı kürd, türkmən, xristian və müsəlmanlardan ibarət böyük xalqların stabilliyini qoruyurdu. Bu rejim darmadağın edildi. İraq dövləti dağıdılıb və xəritədən silinib. Bu dövlətin dağılmasından bir çox xalqlar əzab çəkir. Ərəb, türkmən, kürd və başqa xalqlar. Kürdlərdən daim öz məqsədləri üçün istifadə ediblər. Sonra da kənara atıblar. İraqda çox faciəvi proseslər gedir. Bunları böyük faciə kimi dəyərləndirirəm".

**V.Quluzadə avqustun 2-5 arası Azərbaycan və Ermənistan arasında baş verən 3 günlük müharibə ilə bağlı da suallarımızı cavablandırdı. O hesab edir ki, Azərbaycan müharibəyə tam hazırdır:** "Buna heç kəsin şübhəsi olmasın. Azərbaycan bu hadisələrdə özünü çox yaxşı göstərdi. Dəfələrlə demişəm, yenə deyirəm ki, məsələ bundan ibarət deyil. Burada Ermənistan Rusiyanın əlində olan bir alətdir. Bunu unutmaq olmaz. İmkan olanda sözsüz ki, Azərbaycan müharibə də edəcək, qalib də gələcəkdir. Sadəcə, buna ehtiyac yoxdur".

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014



# Bakı Minsk Qrupundan imtina edərsə...

## "Atlas" Araşdırmalar Mərkəzi: "Azərbaycan Qarabağ məsələsini BMT müstəvisinə çıxarmaq istədikdə, bu təşkilat mövzunun müzakirəsini bir arqumentlə rədd edir: Qarabağ məsələsi ilə ATƏT məşğul olur"

**"Atlas" Araşdırmalar Mərkəzi Qarabağ münaqişəsi ilə bağlı son durumla əlaqədar açıqlama yayıb. Açıqlamada bildirilir ki, Azərbaycan və Ermənistan prezidentlərinin avqustun 10-da Soçidə keçirilən görüşündən sonra yeganə nəticə budur: tərəflər lokal toqquşmalara ara verərək, kiçik istisnalar xaricində, 10 avqustdan sonra atəşkəsə riayət edirlər.**

Bu, Moskva və İrəvanın maraqlarına cavab verir. Ancaq Bakı mövcud vəziyyətdən yenə narahatdır. Çünki status-kvonu dəyişdirmək istəyir. Belə olan halda bölgədə nisbi sabitlik yenə pozula bilər. Ancaq növbəti lokal toqquşmalar da nəticəsiz qalacaq. Çünki məsələyə yenə Kreml müdaxilə edərək lokal toqquşmaların müharibəyə çevrilməsinə imkan verməyəcək.

Danışıqlar nəticə vermir, müharibə isə risklidir. Belə olan halda rəsmi Bakı status-kvonu dəyişdirmək və beynəlxalq aləmin diqqətini Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəltmək üçün qeyri-standart addım haqqında düşünə bilər. Belə bir addım rəsmi Bakının ATƏT-in Minsk Qrupunun *(Minsk Qrupunun üzvləri)* vasitəçiliyindən imtina etməsi variantıdır. Onsuz da Minsk Qrupunun 20 illik fəaliyyəti heç bir nəticə verməyib, hazırladığı planlar Azərbaycan və Ermənistanda qəbul edilməyib. Minsk Qrupu təsir mexanizmlərinə malik deyil. Qrupun arqumenti bundan ibarətdir ki, tərəflər könüllülük əsasında razılaşmaya gəlməlidirlər, onlar bu işə yalnız kömək edə bilərlər.

Bütün bunlar o deməkdir ki, Minsk Qrupu gələcəkdə də vasitəçilik missiyasında uğur qazana bilməyəcək. Bu isə status-kvonun davamı deməkdir. Deməli, rəsmi Bakının status-kvodan qurtulmağının bir yolu da Minsk Qrupundan imtina etməsidir.

Rəsmi Bakı Minsk Qrupundan imtina edərsə, bu, Azərbaycan üçün hansı yeni imkanlar yarada bilər?

**Birincisi**, Azərbaycanın Minsk Qrupundan imtinası Bakının vasitəçilik məsələsində ATƏT-dən imtinası demək olacaq. Rəsmi Bakı hər zaman Dağlıq Qarabağ məsələsini BMT müstəvisinə çıxarmaq istədikdə bu təşkilat mövzunun müzakirəsini bir arqumentlə rədd edir: Qarabağ məsələsi ilə ATƏT məşğul olur, biz bu məsələyə qarışa bilmərik. Deməli, rəsmi Bakı ATƏT-in Minsk Qrupundan imtina edərsə, BMT Dağlıq Qarabağ probleminə diqqət yetirmək məcburiyyətində qalacaq. Bu isə nəzəri olaraq BMT-də işğal olunmuş Azərbaycan torpaqları ilə bağlı qəbul olunan 4 qətnamənin də gündəmə gətirilməsinə şərait yarada bilər.

Əlbəttə, bu o demək deyil ki, münaqişənin həlli ilə BMT məşğul olacaq. Ancaq rəsmi Bakının ATƏT-in Minsk Qrupunun vasitəçilik missiyasından imtinası ən azı beynəlxalq aləmə siqnal olacaq ki, Azərbaycan mövcud vəziyyətlə barışmır və işğal altındakı torpaqlarının boşaldılmasını tələb edir. BMT və ATƏT bölgədə müharibə istəmirlər, ona görə də Minsk Qrupunun əvəzinə başqa formatı müzakirə etmək məcburiyyətində qalacaqlar.

**İkincisi**, rəsmi Bakının Minsk Qrupundan imtinası başqa formatın axtarışına yol açacaq. Yeni vasitəçiyə və ya vasitəçilərə ehtiyac yaranacaq. Onsuz da ABŞ və Fransa illərdir fəal vasitəçilik missiyası həyata keçirmirlər, bütün təşəbbüs Rusiyanın əlindədir. Ermənistan ilk növbədə Rusiyanı istəyəcək, rəsmi Bakı Kremlə "yox" deyə bilməyəcək, ancaq başqa bir ölkənin namizədliyini də irəli sürəcək. Böyük ehtimalla bu ölkə Türkiyə olacaq. Əlbəttə, bu varianta da İrəvan etiraz edəcək. Ancaq əgər Kreml Ankara ilə anlaşarsa, Moskva İrəvana təzyiq edib bu prosesə Türkiyənin qatılmasına şərait yarada bilər. Ukrayna məsələsində Qərbin sanksiyaları ilə üzləşən Kreml ABŞ və Fransanın vasitəçiliyindənsə Türkiyənin bu prosesdə rol almasına yaşıl işıq yandıra bilər.

Türkiyənin vasitəçilik prosesinə qoşulması Azərbaycanla yanaşı Rusiya və Ermənistanın da xeyrinədir. Çünki Ankara Vaşinqton və Avropa Birliyi ölkələrindən fərqli olaraq Rusiya ilə sıx münasibətlərə malikdir və Moskvanın bölgədəki maraqlarını nəzərə alır. Digər tərəfdən, Ermənistan üçün Türkiyə ilə münasibətlərin nizamlanması və sərhədin açılması vacibdir. Beləliklə, ATƏT-in Minsk Qrupundakı ABŞ, Fransa və Rusiya həmsədrliyi Rusiya + Türkiyə tandemi ilə əvəz oluna və bu, danışıqlar prosesini canlandıra bilər. Məsələn, bu dördlükdən *(Azərbaycan, Ermənistan, Rusiya və Türkiyə)* ibarət daimi təmas qrupu formalaşdırıla bilər. 4 ölkənin diplomatları daimi əsasda müzakirələr apararaq Dağlıq Qarabağ münaqişəsinin həlli ilə paralel Türkiyə-Ermənistan münasibətlərinin nizamlanmasını və Rusiyanın bölgədəki maraqlarını nəzərə alacaq plan hazırlaya bilərlər.

**Üçüncüsü**, Azərbaycanın Minsk Qrupundan imtinası Fransanın vasitəçilik missiyasına son qoyacaq. Rəsmi Bakı Minsk Qrupunun xaricində də Fransa ilə münasibətlərin inkişafının tərəfdarıdır. Fransa dünyanın ən iri və modern silah istehsalçılarından biridir. Rəsmi Bakı Fransadan silah almağa çox çalışır. Paris bu silahları Azərbaycana satmamasını Dağlıq Qarabağ münaqişəsində vasitəçilik missiyası ilə əlaqələndirir. Ancaq əgər Fransa vasitəçi olmayacaqsa, onda Parisin Azərbaycana milyardlarla dollar həcmində silah satmaq şansı yaranacaq. Fransa NATO-nun üzvüdür, bu təşkilatın isə Azərbaycan və Ermənistana silah satmamaqla bağlı qeyri-rəsmi qərarı var. Ancaq bu qərardan ən çox istifadə edən Rusiya və İsraildir. Hər iki dövlət Azərbaycana milyardlarla dollar həcmində silah satır. Ona görə də bir müddətdən sonra maliyyəyə ehtiyacı olan və silah bazarında Rusiya ilə rəqabət aparan NATO ölkələrinin Azərbaycana silah satmamaq qərarına yenidən baxması mümkündür.

# "Mətbuat Şurası Müdafiə Nazirliyi ilə gördüyü işləri intensivləşdirəcək"

## Şura cəhbədən gələn informasiyalarla bağlı plan hazırlayır

**"Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində baş verən olayların mediada işıqlandırılması ilə bağlı Mətbuat Şurası Müdafiə Nazirliyi ilə birgə gördüyü tədbirləri intensivləşdirəcək".**

Bunu APA-ya açıqlamasında Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.

O bildirib ki, görülən tədbirlər cəbhə bölgəsində baş verən olaylarla bağlı mənbəyə söykənən informasiyaların ölkə ictimaiyyətinə çatdırılmasından ibarət olacaq: "Bu, indiki şəraitdə kifayət qədər önəmlidir. Bu sahədə ciddi addımlar atmaq lazımdır. Əgər hansısa mətbuat orqanında rəsmi mənbələrə söykənməyən yazılar yayımlanarsa və bunların nəticələri ürəkaçan olmazsa, həmin mətbuat orqanları ictimai qınağa çəkiləcək. Həm də bununla bağlı digər cəza növləri də seçmək lazımdır".

**Ə.Amaşov təəssüflə qeyd edib ki, avqustun əvvəlində qoşunların təmas xəttində müşahidə olunan gərginlik zamanı Azərbaycan mətbuatı öz vəzifəsini layiqincə yerinə yetirə bilmədi:** "Baş verən olaylarla bağlı Müdafiə Nazirliyinin, ayrı-ayrı əlaqədar rəsmi qurumların məlumatlarını deyil, müxtəlif mənbələrin - əgər onları mənbə hesab etmək olarsa, - məlumatlarını yayımladılar. Demək olar ki, bu hadisələr zamanı xəbər portallarının sayı bir neçə dəfə çoxaldı. Bəzi məqamlarda isə Ermənistan mətbuatında gedən xəbərlərə də istinad etdilər. Ümumiyyətlə, baş verən olayları düzgün işıqlandırmadılar".

**Mətbuat Şurasının sədri qeyd edib ki, ümumiyyətlə, mətbuat daxildə baş verən hadisələri işıqlandırır:** "Amma dövləti maraqlarda siyasi yönündən asılı olmayaraq, mətbuat vasitələri vahid mövqedən çıxış etməlidirlər. Hər bir ölkə üçün bu vacib şərtdir. Çox təəssüf ki, biz bu sözləri Azərbaycan jurnalistikasına tam aid edə bilmirik. Daha çox onlayn jurnalistikada bəzi Azərbaycanı istəməyən ayrı-ayrı mərkəzlərin iradları ilə həmin KİV-in mövqeləri üst-üstə düşür. Bu da istər-istəməz hər bir Azərbaycan vətəndaşını narahat etməlidir".




**Ə.Amaşov vurğulayıb ki, Mətbuat Şurası növbəti iclaslarından birincisini avqustun 29-da Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin keçirdiyi müşavirədə müzakirə olunan məsələlərə həsr edəcək:** "Müəyyən planlar üzrə işləyirik. Bu sahədə nələri edə biləcəyimizi müzakirə edirik. Bununla bağlı dəyirmi masalar, konfranslar təşkil edəcəyik. Bu məsələ ilə bağlı KİV-də aparılan monitorinqləri sürətləndirəcəyik".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ



# Faşizm necə yaranır

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Tarix keçmişi doğru-düzgün əks etdirmir. Hər bir ölkənin idarəçilik formatı dəyişəndə tarixi yenidən yazılır, o ölkədə hökm sürən təbliğata, ideologiyaya uyğunlaşdırılır. Beləliklə keçmiş heç kimin tam anlamadığı, çıxış yolu tapa bilmədiyi bir labirintə dönür...**

Nə qədər kitablar oxuyub, filmlərə baxsam da tarixin bir səhifəsi mənə qaranlıq qalırdı: necə oldu ki, dünya mədəniyyətinə, elminə bu qədər töhfələr verən, hələ ötən əsrin əvvəllərində ən intizamlı, sivil toplumlardan biri olan alman xalqı faşizmin girovuna çevrildi... Özü də bütün dünyaya qarşı kin-nifrət püskürən ideologiya daxildə ciddi müqavimətlə qarşılanmadı. Cəmisi bir-iki ildən sonra faşizm alman xalqının düşüncəsinə hakim kəsilmişdi. Az sonra bütün dünyaya qarşı savaşmaq əzmi ortaya qoyulanda da almanlar Hitleri dəstəklədilər... Qəribə də olsa indi, daha inkişaf etmiş ölkə olan Almaniya faşizmin yenidən baş qaldırmamasının qarantına dönüb...

Hələ də tarixin sirr dolu səhifələri var. Amma onu da anlamaqda tarixi paralellər köməyə yetir. Faşizm daha qatı, daha amansız şəkildə bundan daha çox əzab çəkən, itki verən bir ölkədə - Rusiyada baş qaldırır.

Tarixi paralellər, oxşarlıqlar adamı heyrətdə qoyur. Rusiya prezidenti Putinin "Seliger"də gənclərlə görüşünü bu ölkənin telekanalları dönə-dönə göstərdilər. Eyni uniforma geyən gənclər Rusiyanın iddialarını onun dilindən eşitdikcə alqışlarla qarşılayırdılar. O isə usanmadan az qala üç saat Rusiyanın maraqlarını, hədəflərini sadalayırdı. Bir kəs də "dost, qardaş xalqa" - Ukraynaya qarşı açılan savaşın nəyə gərək olduğunu dilə gətirmədi... Eynən ötən əsrin 30-cu illərindəki Almaniyanı xatırladırdı...

Hətta Ukraynaya yönələn qəsdin detalları bütün incəlikləri ilə üst-üstə düşür. Hitler də böyük işğalın başlanğıcı kimi Çexoslovakiyanı hədəfə alanda məhz bu ölkənin qərbində yaşayan almanların himayədarı kimi çıxış etdi. Dünya onun bu iddiasına göz yumdu. Avropa dövlətləri məhz hansı məqamda yanıldığını cəmisi bircə il sonra dərk etdi...

Avropanı zəbt etmək qəsdində olan Hitlerə Sileziyanın zəngin mədənləri gərək idi. Putin də gözünü Ukraynanın kömür və metalla zəngin, sənayesi daha inkişaf etmiş iki bölgəsinə - Donersk və Luqansk vilayətlərinə dikib...

Metodlar, vasitələr heyrət doğuracaq qədər üst-üstə düşür. Putin ən aşkar həqiqəti danmaq istəyir: guya bu bölgədə savaş açan separatçılar hansısa sirli-sehrli mənbədən ən müasir silah-sursat, canlı qüvvə əldə edirlər. Məhz rusların bu müharibədə birbaşa iştirakçı olduğunu sübut edən faktlar ortaya qoyulanda isə bunu təsadüfi bir hadisə adlandırırlar. Görəsən belə təsadüflər indiyəcən niyə baş vermirdi?

Rusiyanın Pskov vilayətində yerləşən hərbi kontingentinin 9 üzvü məhz Ukraynada, onun ərazisinə düz 20 kilometr daxil olandan sonra əsir düşmüşdülər. Məhz 9 əsgəri Rusiya 63 ukraynalı əsgərə dəyişdirdi... Bir ölkənin başqa bir ölkəyə təcavüzünü sübuta yetirmək üçün bunlar yetərli deyilmi? Bundan iki gün sonra yenə Rusiyanın desant dəstəsi əsir düşüb... İndi hansı bəhanə köməyə yetəcək?

Məhz Putin hakimiyyətə gələndən sonra Rusiyada Orta Asiyadan, Qafqazdan bu ölkəyə işləməyə gedənlərə qarşı açıq-aşkar təzyiqlərə start verildi. İnsanları döyən, əzən, tapdayan, işgəncələr verən neo-faşist dəstələr, bir qayda olaraq, cəzasız qalırdılar. Məhz onlar bir azdan daha aşkar və mütəşəkkil formada bütün Rusiyada fəaliyyət göstərdilər... Bax indi, Rusiya prezidentinin dilindən qopan sözlərə əl çalanlar da həmin qatı şovinistlərdir...

Avropa, eləcə də bütün dünya onun üstünə yeriyən təhlükəni hiss edir. Məhz Rusiyaya qarşı yönələn sərt iqtisadi, siyasi qadağalar da bu təhlükənin miqyasından xəbər verir...

Biz bir dövlət kimi yeni cilddə, amma köhnə xislətdə baş qaldıran faşizmin birbaşa hədəfindəyik. Səksəkə içində nə zaman nəhsin, tamahın bizə yönələcəyini gözləyirik. Etiraf edək ki, bu təhlükədən qorunmaq üçün ciddi addım da atmırıq. Əksinə hər tərəfə od püskürən bir dövlətin qarnını doydurmaq üçün, özümüzə ziyan dəydiyini bilə-bilə, dəridən-qabıqdan çıxırıq... Eynən bütün dünya ilə savaş qəsdində olan Hitler Almaniyasına SSRİ-nin taxıl verməyinə bənzəyir.

İkiqat-üçqat baha aldığımızı Rusiyaya daşımaq köməyə yetəcəkmi? Axı bu ölkə Azərbaycanın da onun maraq dairəsində olduğunu danmır...

Növbə kimindir?

# Sərdar Cəlaloğlu Babəki və Koroğlunu düşmən, Füzulini kafir çıxartdı

## ADP sədri: "Onlar Azərbaycan dövlətçiliyinə qarşı vuruşan adamlar olublar"

**ADP sədri Sərdar Cəlaloğlu 1937.az saytına müsahibəsində fəlsəfi fikirlərlə yanaşı, Azərbaycanın tanınmış şəxsiyyətləri barədə olduqca amansız fikirlər səsləndirib.**
**ADP sədri Azərbaycanın dahi şairi Məhəmməd Füzuli haqqında deyib ki, onun elə fikirləri var bizim üçün ziyanlıdır: "Biz yaradıcı adamlara həmişə büt kimi baxmışıq. Onları tənqid eləməyə qorxmuşuq. Füzuli gözəl şeir yazıb və onun bütün fikirlərini də olduğu kimi qəbul eləmişik. Amma bilməmişik ki, Füzulidə elə fikirlər var ki, bizim üçün ziyanlıdır və zərərlidir.**

Yəni biz Füzulinin o fikirlərini qəbul eləməli deyilik. Çünki o fikirlər bizi çaşdırır, bizi düzgün tərbiyə eləmir. Biz Füzulinin içindəki zəhərləri neçə yüz illərdir içirik. Konkret bir misal çəkim. Ərəbcə yazılmış "Mətləül-etiqad" əsəri Füzulinin fəlsəfi fikirlərindən ibarətdir. Orda Füzuli yazır ki, guya Peyğəmbər sirr elmini öyrənin deyib. Mən də sirr elmini öyrəndim - əl-kimya, astrologiya, terekuriya... Və bunların əsasında da şərh eləməyə başladım. Mən o əsərdə görürəm ki, Füzuli kafir düşüncəsinə gəlib çıxır. Falesdən yazır. Deyir, Fales sofistdir. Sofist nə deməkdir? Yəni bir yalanı o qədər gözəl və dəqiq danışır ki, mən ona inanıram, altındakı yalanı görmürəm. Məsələn, Fales deyir dünya sudan əmələ gəlib. Füzuli gör nə qədər yanlışlığa gəlib çıxır. "Mətləül-etiqad"da deyir ki, Qurani-Kərimin filan ayəsində yazılıb ki, Allahın taxtı və yer-göy suyun üstündədir. Bu o deməkdir ki, Faleslə Füzulinin sözü üst-üstə düşür. Mən demirəm, Quran yalandır. Sadəcə, Füzuli yanlışdır. Axı Quranda elə bir məsələ yoxdur ki, Peyğəmbər desin, sirr elmini öyrənin. Əksinə, Peyğəmbər deyir ki, sirr elmindən uzaq durun. Onlar iblisin elmləridir. Tutalım, astrologiyanı götürək: ulduzlara bax gör sabah mənim əlimə nə gələcək, ovsunla, filankəsi bağla, filan oğlanın bəxtini aç, seks belə gəldi, seks belə getdi, fal, yuxu, nə bilim, zir-zibil... Bunlar həm dünyəvi, həm də İlahi elmə zidd olan şeylərdir".

**Daha sonra S.Cəlaloğlu Azərbaycan xalq qəhrəmanı Babək və Koroğlu haqqında amansız fikirlər işlədir:** "Azərbaycan ensiklopediyasına bax gör Koroğlu kimdir? Koroğlu Səfəvilərə qarşı mübarizə aparan türkmən-monqol mənşəli qrupun nümayəndəsi olub. Və dəhşətlisi budur ki, Koroğlunun Azərbaycan variantı olmayıb. Çünki Koroğlu dastanında olan hadisələrin hamısı Azərbaycan dövlətçiliyinə qarşıdır. Və mənim xalqıma qarşı vuruşan bir adamı gətirib mənə qəhrəman eləyiblər. Yadelli qüvvələrə qarşı vuruşan adam qəhrəman ola bilər? Öz xalqının varlısına-kasıbına qarşı vuruşan adam qəhrəman deyil. Babək kimdir? Onun adı Babokdur. Babok Hasan. Gör Babok hansı xalqa məxsus addır. Pakistan. Babək nə vaxtdan qəhrəman olub?"

**Qeyd edək ki, Azərbaycanda tarixi şəxsiyyətlər haqqında qanunun qəbulu bu yaxınlarda təklif edilib. Belə bir qanunun qəbul edilməsi bir sıra qadağaları nəzərdə tutacaq ki, məsələn, Sərdar Cəlaloğlu Məhəmməd Füzuli, Babək, Koroğlu haqqında işlətdiyi fikirlərə görə məsuliyyət daşıya bilər. Sərdar Cəlaloğlu isə bizimlə söhbətində bildirdi ki, birincisi, dünyada heç bir ensiklopediyada tarixi şəxsiyyət anlayışına rast gəlinmir, ikincisi, heç kimi təhqir etməyib:** "Tarixi şəxsiyyət anlayışı elmi anlayış deyil. Var tarix və şəxsiyyət, amma tarixi şəxsiyyət deyilən bir məfhum yoxdur. İnsanların hamısının tarixdə rolu var, birinin az, birinin çox. Çox olanlar tarixdə şəxsiyyətlər kimi tanınırlar. Sovet düşüncə tərzindən irəli gələn, Kommunist Partiyasının icad elədiyi anlayışlardan biri də tarixi şəxsiyyət ifadəsidir. Müasir dünyada bunu heç kəs qəbul eləmir. Belə bir anlayış olmadığına görə də bunun əsasında da heç bir hüquq, qanun meydana çıxa bilməz. İkincisi, mən heç bir şəxsiyyəti təhqir eləməmişəm və eləmək fikrim yoxdur. Mən 1937.az saytına həmin müsahibəmdə də heç kimi təhqirə yol verməmişəm. Görünür, jurnalist bir az da maraqlı olsun deyə, fikrimi bir qədər fərqli, özünün başa düşdüyü şəkildə təqdim edib. Mən izah eləmişəm ki, Məhəmməd Füzulinin qeyri-müəyyənliyə düşməsinin səbəbi nədir. Füzulinin yaşadığı dövr Qərbdə və Şərqdə elmin, mədəniyyətin geriləyiyi, xurafatın önə çıxdığı dövr idi. Xurafat deyəndə mən bir neçə paralogiyanın-əlkimyanın, astrologiyanın dəbdə olduğunu nəzərdə tuturam. Həqiqi elm və dini biliklər sıxışdırılmışdı və onların yerini qeyd etdiyim cəfəng elmlər tutmuşdu. Özünü bilikli adam hesab edənlər də bu bilikləri mənimsəməyə cəhd edirdilər. Mən Məhəmməd Füzulinin də adını bu zaman misal olaraq çəkmişəm ki, Füzuli də bilikli adam olaraq həmin cəfəng elmləri də öyrənməyə cəhd edib. Mən bildirmişəm ki, Məhəmməd Füzuli ofsun elmi olan əl-kimyanı öyrəndiyi üçün Quranın özünə də əl-kimya kimi yanaşıb. Mən sübut eləmişəm ki, əl-kimya ilə Qurana yanaşanda insanlar necə yanılır. Lakin mən Füzulini kafir adlandırmamışam".

**Koroğlu və Babəklə bağlı işlətdiyi fikirlərə gəlincə, Sərdar Cəlaloğlu vurğuladı ki, mövqeyində haqlıdır, çünki bu məsələni dövlətçilik məsələsi hesab edir:** "Mən hesab edirəm ki, sovet hökumətinin vaxtında Azərbaycanda həyata keçirilən sosial kodlaşdırma dəyişdirilməlidir. Çünki biz necə ki, sovet kodları ilə insanları tərbiyə edirik, bizim adamlarımız sovet adamı olaraq qalacaq. Elə sosial kodlar tətbiq olunmalıdır ki, insanlar tamamilə başqa ruhda tərbiyə olunsun. Babəkin mənsub olduğu təriqət xalis Azərbaycan türkünün təriqəti deyil. O təriqətdə farslar da, pakistanlılar da, hindistanlılar da olub. Həmin təriqətin 4-5 üsyanı olub. Onun birinə azərbaycanlılara Babək kimi təqdim edilən Babok başçılıq edib. Baboku ruslar qəsdən Azərbaycan tarixinin bir elementinə çeviriblər və İslama qarşı vuruşan azərbaycanlı kimi təbliğ ediblər. Azərbaycan türkcəsində Babok adında söz yoxdur. Babok puştu adıdır və bu adam özü heç vaxt Bəzz qalasından aşağı düşməyib. Babək-Babok heç bir dövlətin də başçısı olmayıb. O, Bəzz qalasından cəmi bir dəfə kənara çıxıb, onda da məğlub olub. Bəzz, Əlincə, Çənlibel kimi qalaların alınmazlığı da oradakı adamların qəhrəmanlığı ilə bağlı deyildi. Qalalar elə yerdə tikilib ki, o dövrdə onu tutmaq asan deyildi".



**Koroğluya gəlincə, ADP sədri ensiklopediyaya əsaslanaraq qeyd etdi ki, Koroğlu Hülakilərin, Cəlairlərin Səfəvilər hakimiyyətinə qarşı apardığı partizan hərəkatının başında duran adam olub. Bu adam həyatda yaşamış şəxsdir:** "Səfəvilər Azərbaycan dövləti idi. Koroğlu isə Səfəvilərə, yəni Azərbaycan dövlətçiliyinə qarşı vuruşan birisi olub. Böyük qeyri-adi qəhrəmanlığı da olmayıb. Sovet dövründə Koroğlunu əfsanələşdirib onun haqqında olan-olmaz uydurmalar yaradıb xalq dastanı ediblər. Dastanın 11 variantının içində yalnız Azərbaycan variantında Koroğlu türk sultanlarına qarşı döyüşən qəhrəman kimi göstərilib. Gürcülərin variantında isə Koroğlunun Şah Abbasa qarşı vuruşduğu göstərilir. Özbək, qazax, türk, ermeni və digər variantlarda isə "Koroğlu" Səfəvilərə qarşı mübarizə aparan hərəkat haqqında dastandır. Mən bunları dilə gətirirəmsə, bunu tariximizi insanların yanlış öyrənməkdən əl çəkməsi üçün edirəm, Babəki, Koroğlunu təhqir etmək məqsədi güdmürəm. Mən tarixi faktlara əsaslanıb deyirəm ki, Babəklə Koroğlu Azərbaycan xalqının qəhrəmanları olmayıblar. Onlar Azərbaycan dövlətçiliyinə qarşı vuruşan adamlar olublar. Müasir dövrdə biz o adamları xalqa qəhrəman kimi təqdim eləməliyik ki, o adamlar Azərbaycan xalqının düşmənlərinə qarşı mübarizə aparıblar. Bu gün bizim düşmənimiz erməni-rus birliyidir. Tariximizdə də erməni-rus işğalına qarşı mübarizə aparan kifayət qədər qəhrəmanlarımız var. Məhz onları təbliğ eləmək lazımdır. Mən konseptual şəkildə Azərbaycan vətəndaşının şüurunun formalaşdırılması məsələsini qoymuşam. Bunu çatdırmaq istəyirəm ki, xalq öz həqiqi ideallarını, qəhrəmanlarını tanımalıdır. Mən yeni müstəqil dövlətin kodlaşdırma siyasətinin həyata keçirilməsini zəruri hesab edirəm və əski kodlardan imtinanı vacib sayıram. Mən bunları çatdırmaq istəyirəm, nə Babəklə, nə Koroğlu ilə düşmənçiliyim yoxdur".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014

**Türkiyənin ən nüfuzlu universitetləri sırasında yer alan Trabzon Texnik Universitetinin professoru Kemal Üçüncü Qara dəniz hövzəsi ilə bağlı yeni strateji plan təklif edib. 21-ci yüz il Türkiyə İnstitutunun dərgisində çap edilən məqaləni qısa ixtisarla təqdim edirik.**

# 20 milyon kilometri əhatə edən birlik

## Türkiyə-Azərbaycan-Gürcüstan Gömrük Birliyi yaradılması təklif edilir

"Güney Qafqazın təhlükəsizliyi, rifahı və inkişafı üçün Türkiyə, Azərbaycan və Gürcüstanın iqtisadi və mədəni məkanda birləşərək Gömrük Birliyi yaratması tarixi, eyni zamanda strateji baxımdan mümkündür. Türklər və gürcülər tarixdə dəfələrlə ortaq mədəni məkanda yaşayıb və yaşamaqdadır. Qonşu olan bu xalqlar qohumluq münasibətləri ilə əlaqələrini daha da möhkəmləndiriblər. Türkiyə-Azərbaycan ilişkiləri isə Batı Oğuz türklüyünün iki dövlət, bir millət modeli olaraq şəkillənib. Əslində Türkiyə, Azərbaycan və Gürcüstan bütün quruluşlarda eyni mədəni məkanda var olub. Dövlətlərin siyasi quruluşları bu ortaq mədəni məkanı dağıda bilməyib. Qara dəniz hövzəsi günümüzdə də ortaq mədəniyyəti paylaşan coğrafiyadır.

Tikilməkdə olan Qars-Tiflis-Bakı dəmiryol xətti bu mədəni və iqtisadi məkanı birləşdirmək baxımdan çox önəmlidir. Türkiyə, Naxçıvan və Batum arasındakı Qars anlaşmasına dayanaraq Keza Batum Hava Limanının Türkiyə ilə ortaq istifadəsi isə bu ilişkilərin daha da gəlişməsinə imkan yarada bilər.

Qapalı quru sahəsi olan Orta Asiya hövzəsinin Qərbə iqtisadi inteqrasiyasının yeganə yolu da Qara dəniz limanıdır. Orta Asiya ölkələrindən yalnız Qazaxıstan bu gerçəyi gözə alaraq Batum limanını uzun müddətə icarəyə götürüb, bununla da açıq dənizə çıxış əldə edib. Bu strategiyanı digər ölkələrin tətbiq etməsində fayda var. Çünki dəmir yolu vasitəsilə Türkiyənin Qara dəniz limanlarına çatımın asanlaşdırılması bölgənin lojistik, strateji avantajını daha da artıracaq.

Türkiyə bu stratejini gerçəkləşdirmək üçün Doğu-Batı tarazlığını, milli mənfəətləri ön plana çıxaran bir neçə variant üzərində işləməlidir. Bu projelərin onurğasını strateji bilgi təşkil etməlidir. Bu gün Türkiyənin kültür diplomatiyası yetərli səviyyədə deyil. Türk cümhuriyyətlərindən bu işi yalnız Qazaxıstan qura bilib. TRT-də xarici siyasət danışan uzmanlarımız söz etdikəri coğrafiyaları çox təəssüf, yaxşı tanımır. İrandan danışanların heç biri İranı görməyib, Oğuz coğrafiyasının inkişaf dinamikasını bilməyənlər mütəxəssis kimi çıxış edir. Halbuki bu coğrafiya bizim ən yaxınımızdadır. Qafamızı Orta Doğuya gömdüyümüzdən bu məkana diqqət ayırmırıq.

Təklif etdiyimiz strategiya isə Türkiyənin ortaq olduğu güc, hegemonluq, siyasi və uluslararası münasibətlər kompozisiyasına çevrilə bilər.

Bu gün Türkiyə uzun vədəli projelər üzərində çox az çalışır. Ancaq zaman bizdən perspektivlər və planlar, nəzəri baxış tələb etməkdədir. Qara dəniz hövzəsindəki illik ticarət dövriyyəsi 1 trilyon dolları aşır. Bölgə dünyanın ikinci ən böyük enerji hövzəsidir. Ərazisi 20 milyon kilometrə çatan bu coğrafiyanı dünyanın ən önəmli iqtisadi məkanlarından birinə çevirmək potensialı var. Yetər ki, bu potensial düzgün işlənsin və bölgənin təhlükəsizliyinə və rifahına xidmət etsin.

Mənzərəni daha aydın təsəvvür etmək üçün Trabzondan bir neçə istiqamətdə olan məsafələri qeyd etmək istəyirəm.

*Trabzon-Almatı 3058 km*
*Trabzon-Bakı 1100 km*
*Trabzon-Tiflis 444 km*
*Trabzon-Bezirgan 650 km*
*Trabzon-Təbriz 950 km*
*Trabzon-Tehran 1617 km*
*Trabzon-Diyarbəkir 626 km*
*Trabzon-Mardin 721 km*

Göründüyü kimi, Təbrizlə Trabzon arasındakı məsafə təxminən Trabzonla Ankara arasındakı məsafə qədərdir. Təbrizdən Bəndər Abbas limanına olan məsafə 2000 km-dir. Bu mənada Trabzon bölgənin lojostok qapısı olmağa ən uyğun namizəddir. Tarixdə olduğu kimi, Təbriz-Ərzurum-Trabzon xətti bölgənin iqtisadi inkişafı üçün ciddi önəm qazana bilər.

Türkiyə bu gün uluslararası su və dəmir yolu xətlərinin keçdiyi ticarət dəhlizidir. Ancaq limanlarımızı modernləşdirərək, onları uzaq məsafələrə çatan dəmir yolları ilə birləşdirərək ölkəmizin bu ticarətdən daha böyük pay ala bilməsini gerçəyə çevirmək mümkündür. Bu məsələdə ilk olaraq doğu Qara dəniz limanlarının modernləşdirilməsinə ehtiyac vardır. Özəlliklə Baltik dənizi-Reyn-Dunay-Qara dəniz istiqamətində yeni limanlar qurulmalıdır. Bu iqtisadi münasibətlərin önəmli bir tərəfi də Türkiyəni türk və qohum topluluqlarla daha da yaxınlaşdırmaq olacaq.



Tarixi faktlara nəzər saldıqda Rusiyanın Qara dənizin Trabzon limanlarının önəmini məqsədli şəkildə azaltdığının şahidi oluruq. Bu proses 1880-ci illərdən başlayıb və qısa zamanda tamamlanıb. Ancaq Türkiyə siyasiləri bu gün də bu siyasətin fərqində deyillər. Bu gün sürətli qatarla Bakıdan Qara dənizə 4 saata çatmaq mümkün olsa, Xəzər üzərindən Qazaxıstan-Türkmənistan və digər Asiya ölkələrinə çıxış imkanı da əldə edilir. Bu iqtisadi bütünləşmə Türk Şurası, Türk İşbirliyi qurumlarının yaranaraq daha böyük layihələrə imza atmasına imkan yaradar. Sonrakı mərhələdə isə Çin də bu iqtisadi məkana qoşula bilər. Fikrimcə, günümüzdə müzakirəyə çıxarılması ən önəmli məsələlərdən biri də budur.

Bu infrastrukturun yaradılması isə daha sonra hövzə ölkələrinin gömrük birliyi yaratmasını gündəmə gətirə bilər. Bu, bütün iştirakçı dövlətlərə böyük mənfəət gətirə bilər. Yaxın 50 ildə dünya düzəninin şəkillənəcəyi coğrafiyamızda strateji planlamanı bu bölgənin gerçək sahiblərinin yaratması zamanı çoxdan yetişib. İqtisadi mədəni işbirliyinin vacib məqamlarından biri də dövlətlərin, millətlərin təhlükəsizliyi üçün təminata çevrilməsidir. Bu iqtisadi coğrafiya hətta bölgə ilə bağlı tamamilə fərqli projeləri olan Rusiya üçün də çəkici ola bilər. Rusiya Orta Doğu ilə iqtisadi münasibətlər qurmaq üçün dünya okeanını dövr etmək məcburiyyətindən azad olar".

❑ **Hazırladı:**
**Aygün MURADXANLI**

# Çörəklə imtaha çəkilənlər - bizimkilər



**Hüseynbala SƏLİMOV**

**Ukrayna ilə Rusiya arasında problem başlanarkən demişdik ki, bu məsələ hələ çox uzun çəkəcək. O vaxt çoxu düşünürdü ki, Qərb bu məsələni bir anın içində həll edəcək. Bəlkə Qərbin özü də problemin bu qədər qəlizləşəcəyini güman etmirdi.**

Bəs biz Ukrayna məsələsinə niyə bu qədər diqqət ayırırıq? İnanın ki, bəlkə də V.Putinin SSRİ planları alınacaqdı. Bunun qarşısını yalnız Ukraynadakı proseslər aldı. Düzdür, Nursultan Nazarbayev də çıxış qapısını özü üçün açıq saxlayır, Avrasiya İttifaqının sırf iqtisadi birlik olmasında israr edir.

Amma Ukrayna Rusiyanın imperiya planlarında həlledici həlqə idi. İndi Rusiya prosesdə özünün iştirakını bütün vasitələrlə inkar edir. Amma cidanı çuvalda gizlətmək olmaz. Hər şey göz önündədir. Hətta separatistlərin özləri onlarla birlikdə Rusiyanın adamlarının vuruşduğunu inkar etmirlər.

Amma onlar bunu etiraf etməsə belə, hətta formal məntiq belə hər şeyi yerbəyer edir, çunki müharibənin özünün də bir məntiqi var. Neçə illərdir ki, vur-tut bir neçə min əhalisi olan Dağlıq Qarabağın və yaxud da ki, bu bölgədən özünün iqtisadi resurslarına görə əhəmiyyətli dərəcədə fərqlənməyən Ermənistanın Azərbaycan üzərində hərbi qələbə çaldığı israr edilir. Maraqlıdır ki, digər ölkələr də həqiqəti bilsələr də münaqişənin siyasi şablonlarına dəstək verirlər.

Qəribədir ki, Ukraynaya verilən dəstəyi belə Azərbaycandan əsirgəyirlər. Qərb Ukrayna məsələsində daha ardıcıl mövqe tutub. Bu ardıcıllığı biz Gürcüstana və Azərbaycana tətbiqən sezmirik.

Güman edirik ki, Ukraynaya verilən siyasi dəstək Azərbaycana və Gürcüstana verilsəydi bəlkə bu ölkələrin ərazisindəki münaqişə ocaqları çoxdan söndürülərdi.

Amma ümidləri tamam itirmək olmaz. Həm də ortalıqda başqa problem də var. Təəssüf ki, Azərbaycan hakimiyyəti daxili siyasətdə tamam başqa yola, ümummillilik relsində çıxaraq siyasi ksenofobiya yoluna üz tutub. İndi milli barışıq məqamıdır. Amma nə edəsən ki, bu hakimiyyətlərin özəl problemləri bitib-tükənmir. Gürcüstanda da belədir. M.Saakaşviliyə və onun keçmiş komandasına gündə bir cinayət işi açılır.

Gürcüstanda vəziyyət bəllidir. Orada hakimiyət cəmiyyəti özündən əvvəlki hakimiyətin problemləri ilə məşğul edir. Axı nəsə etmək lazımdır...

Azərbyacana gəldikdə isə vəziyyət daha qəlizdir. Bizim hakimiyyəti yalnız bir fikir məşğul edir: necə etsinlər ki, bu sərvət kanalını itirməsinlər?

Cəmiyyət isə indi yalnız bərbad kanalizasiyaya və bir də yollara görə etiraz edə bilir. Halbuki cəmiyyətdə çox böyük bir potensial gizlənib. Bəli, onu sadəcə, hərəkətə gətirmək lazımdır. Amma nə edəsən ki, bu potensial hakimiyyətdə yalnız bir hiss yaradır: o hiss də qorxudur...

Həddən ziyadə böyük sərvət də insanın psixologiyasını dəyişir. Məhz ona görə də bizim hakimiyyət əslində öz cəmiyyətini sevmir. Onlar yalnız özlərinə qarşı cəmiyyətin çox böyük sevgisini imitasiya etməklə məşğuldurlar. Əslində isə münasibət qaşılıqlıdır. Cəmiyyət də bunlara yalnız itaət edir, sevgi yoxdur...

Əvvəldə müharibənin məntiqi haqqında yazdıq. Bəlkə də sual yarana bilər ki, əgər bir kiçik siyasi qüvvə bu boyda cəmiyyəti əzə bilirsə, onu özünə tabe etdirə bilirsə onun kiçik bir dövlətə məğlub olmasında təəccüblü nə var ki?

Təbii ki, bu, məntiqdir. Amma bu hakimiyyət daha çox Qarabağ probleminin finalına gəlib çıxdı. Onlar bu problemə təslim nöqtəsini qoydular. Əvvəlki dövrlərdə isə vəziyyət başqa idi. O vaxt cəmiyyət indiki qədər müti deyildi.

Sadəcə, əvvəlki hakimiyyətlərin səbatsızlığı, səriştəsizliyi cəmiyyətin enerjisini boş-boşuna sovurdu. Yorulmuş, sınmış cəmiyyəti özünə tabe etmək artıq bu hakimiyyətdən elə bir səriştə tələb etmirdi. Hələ o vaxt yazırdıq ki, Azərbaycan cəmiyyətinin özünə gəlməsi üçün bir sosial reabilitasiya mərhələsi lazım gələcək.

Bu hakimiyyəti qorxudan da elə budur. Ona görə də ölkədə iqtisadi mühiti elə səviyyədə saxlayırlar ki, insanlar dirçəlməsin, toyuq samanlıqda eşələnən kimi bütün günü bir parça çörək üçün əlləşib-vuruşsunlar. Bunlar insanları çörəklə imtahana çəkirlər. Bu ölkənin ən acı reallığı da elə budur.

Ac insan, təmin olunmamış insan isə heç vaxt böyük amalların fərqində olmur. O, ən yaxşı halda özünün və ailəsinin yükünü çəkməyə qadir olur....

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014

# Tələbələr ev axtarışında, qiymətlər isə ceyran belində...

## Fantastik təhsil haqqı və bahalı kirayə bir çox tələbənin arzusunu gözündə qoyur; ev axtaran gənc: "İndiki zamanda tələbə olmaq bir problemdir, olmamaq başqa problem..."

**Tədris ili yaxınlaşdıqca paytaxtda kirayə evlərin də qiyməti bahalaşır. Tələbə adını qazanan, rayonlardan gələn gənclər artıq Bakıda mənzil axtarışındadır. Hər kəsə məlumdur ki, bölgə insanı, valideyn aylıq qazancının ən azı 250-300 manatını övladı üçün kirayə haqqına ayırmalıdır. Təbii ki, əgər bəxti gətirib bu qiymətə mənzil taparsa.**

Əksər valideynlərin isə bu boyda xərci qarşılamağa maddi imkanı çatmır. Bu üzdən bir çox tələbələr təhsillərini yarımçıq qoymaq və ya dərsdən sonra işləmək məcburiyyətində qalırlar. İndi təhsil haqqını, kirayə pulunu, gündəlik ərzağa olan tələbatı hesablayanda meydana elə bir rəqəm çıxır ki, bu, orta statistik azərbaycanlının bir neçə illik xərcinə bərabərdir.

Məsələn, 2000 manata təhsil haqqı olan tələbə bir neçə yoldaşı ilə kirayə evə ən azı adambaşına 100 manat ödəməlidir. Nəzərə alsaq ki, tədris ili tələbələr üçün 10 aydır, buna görə də evin pulu bir ildə 1000 manat edir. Gündəlik xərcləri - gediş haqqı, yemək və geyim pulları, dərslik ləvazimatları da ən pis halda gündəlik 10 manat olarsa, bu, aya 300 manat, 10 aya 3000 manata çıxır. Beləliklə, bir tələbə üçün valideyni 10 aya minimum xərclərlə 6 min manat xərcləməlidir.

Mənzillərin son qiymətləri və şəraitləri ilə daha yaxından tanış olmaq üçün paytaxtın Nizami rayonunda "Maklerlər bağı" kimi tanınan əraziyə yollandıq. Ora gələn kimi orta yaşlı bir kişi bizə yaxınlaşıb kim üçün və necə ev istədiyimizi soruşdu. Tələbə olduğumuzu və evi özümüz üçün istədiyimizi bildirib qiymətlərlə maraqlandıq. **Adının Elman** olduğunu deyən ev sahibi iki evi olduğunu və onları tələbə qızlara, ailəli adamlara kirayə verəcəyini dedi: **"Mən evimi oğlanlara vermirəm. Çünki onlar səliqəsiz olur. Həm də oğlanlar çox vaxt qaldıqları sonuncu ayın pulunu vermədən aradan çıxırlar. Ona görə də evimi qızlara və ailəli adamlara verirəm. Nərimanov rayonu ərazisində ümumi həyətdə yerləşən 2 otaqlı evim var, qiyməti 250 manatdır. Digər mənzilim isə metronun "Elmlər Akademiyası" yaxınlığında yerləşir. Bu ərazi institutlara yaxın olduğu üçün 350 manatadır. İçində əşyası da var".** Evlərin baha olduğunu deyib digərləri ilə maraqlanacağımızı bildirdikdə ev sahibi qiymətdə 20-30 aşağı düşə biləcəyini də dedi.

Qeyd edək ki, ev sahiblərinin özləri bura gələndə qiyməti aşağı salmaq mümkün olur. Ancaq dəllallar qiyməti aşağı salmağa imkan vermir, çünki onların özlərinin burada xeyri olur. Maklerlərin sözlərinə görə, kirayə mənzillərin qiyməti yerləşdiyi əraziyə, otaqlarının sayına, təmir səviyyəsinə, mənzildəki əşyalara və sairə görə dəyişir.

Həmsöhbət olduğumuz ev kirayəsi ilə məşğul olan **Səməd Seyidov** evlərin qiymətinin ev sahibi ilə birlikdə qalmaq şərti ilə 100 manatdan başladığını söylədi: **"Həyət evlərinin qiyməti "28 May", "Nəsimi", "Azadlıq prospekti" metro stansiyası ərazilərində bir nəfər üçün 100 manatdır. Bu evlərdə kirəkeş ev sahibi ilə birlikdə qalır və evin bir otağı kirayə verilir. Əgər tək qalmaq istəsələr evlərin qiyməti 200-500 manat arasında dəyişir".**

«Maklerlər bağı»nda apardığımız araşdırmadan məlum oldu ki, paytaxtda bir otaqlı evlərin qiyməti "Nərimanov", "Xətai" metro stansiyası yaxınlığında 250-280 manat, "3-cü mikrorayon bazarı" və metronun "İnşaatçılar" stansiyasının ətrafındakı ərazilərdə 100-200 manat, "Gənclik", "Elmlər Akademiyası", "Sahil" metrostansiyaları ətrafında isə 300-500 manat arasında dəyişir...

Bağda oturan ana və iki gənc qızın üzlərindəki üzgün ifadə onların ciblərinə uyğun ev tapa bilmədiklərindən xəbər verirdi. Yaxınlaşıb kirayə ev tapa bilib bilmədikləri ilə maraqlanırıq. Rayondan qızlarını oxumaq üçün paytaxta gətirdiyini deyən **Süsən Hüseynova** deyir ki, 5 gündür ev axtarsalar da, ciblərinə uyğun ev hələ ki tapa bilməyiblər: **"Evlər çox bahadır. 2 qızım da eyni ildə ali məktəbə qəbul olunub. Bir yandan onların Bakıda yaşayışını təmin edə biləcəyəmmi qayğısı, digər yandan da ev problemi məni bezdirib. Övladlarımın ali məktəbə girməsi sevincim buradakı bahalığı görəndən sonra yarımçıq qaldı".**

Ev axtaran digər tələbə qız Aysel Ağayeva isə 3-cü kurs tələbəsidir. Aysel deyir ki, kirayə qaldığı ev onun səhhətinə ciddi ziyan verib: **"Ucuzdur deyə bərbad bir ev tutdum. Evin istilik sistemi yox idi. Döşəmə betondan idi. Elektrik sobasından istifadə etsək də otaq isinmirdi. Hamama girəndə kəlmeyi-şəhadətimizi deyib girirdik. Nəticədə səhhətimdə ciddi problem yarandı. Artıq dözə bilmərəm. Müalicəmə evə verdiyim pulun iki qatı çıxdı. İndi də normal ev axtarıram. Ancaq büdcəmə uyğun ev tapa bilmirəm. İndiki zamanda tələbə olmaq bir problemdir, olmamaq bir problem".**

Evini daha çox xarici tələbələrə, əsasən də türklərə verdiyini deyən ev sahibi **Sərdar İmanov** türk oğlan tələbələrin azərbaycanlı oğlan tələbələrdən daha səliqəli olduğunu deyir: **"Yasamalda yerləşən 2 otaqlı mənzilimi 350 manata kirayə verirəm. Bu günə qədər evimdə türk tələbələr qalıb. Onların səliqəsinə söz ola bilməz. Bir dəfə evimi iki azərbaycanlı tələbəyə verdim. İki aydan sonra gəlib evi tanımadım, bərbad hala salmışdılar.**










**Türklərin arasında da fəhlə işləyib evimdə qalan olub. Onlar fəhlə işləsələr də heç vaxt pis evdə qalmırlar. Türklər əgər bir yerə zərər dəyibsə onu mütləq bərpa edirlər. Azərbaycanlı oğlanlar isə əksinə, evin pulunu, kommunal xərcləri verməyib qaçırlar".**

Tələbə oğluna ev axtaran ata **Sadiq Məmmədov** da evlərin qiymətindən narazı idi. O, ucuz evlərdə "heç heyvan da yaşamaz", - deyə narazılıq edirdi: **"Oğluma ev tapa bilməkçün durub rayondan gəlmişəm. Ancaq evlər çox bahadır. Normal evlərin qiyməti 250 manatdan başlayır. 100 manata da evlər var. Çox bərbad evlərdir. Mənim oğlum orada necə qalsın, necə dərs oxusun? Hansı yataqxanaya da gedirsən deyir yerlər doludur. Məcburuq, baha da olsa boğazımızdan kəsib uşağa normal ev tutaq".**

Diqqət etsək görərik ki, tədris ili başlayandan bir müddət sonra tələbələr iş yerləri axtarır. Əksəriyyəti restoranlarda, şadlıq evlərində ofisiant işləyir. Çünki gündəlik tələbatlarını qarşılamaq olmur. Halbuki tələbələr maddi qayğılarla yaşamamalı, ancaq savadlarını artırmaq haqda düşünməlidir.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Başsağlığı**

**Müsavat Partiyası Binəqədi rayon təşkilatı Lazım Məlikova anası**
**Səfurə Bayramovanın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüzlə başsağlığı verir.**


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

-----------------------------------------------------------------------

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

-----------------------------------------------------------------------

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

YENİ MÜSAVAT
N 219 (5928) 2 sentyabr 2014

# Tanınmışların 1 sentyabr xatirələri...

## "Məktəbin həyətində ağacdan asılmış bir kotan parçası var idi, zəng əvəzi onu dəmirlə döyəcləyirdilər, səsi yeddi kəndə yayılırdı"


Səbuhi Rəhimli


Ələsgər Məmmədli


Nəmənd Rüstəmov


Emil Salamoğlu

**Dərs ilinin başlanması - Bilik günü 15 sentyabr elan olunana qədər əksər postsovet ölkələri kimi, Azərbaycanda da dərslər sentyabr ayının 1-də başlayırdı. 1 sentyabr yaşlı nəslin yadında hələ də Bilik günü kimi qalıb. Bu gün sosial şəbəkələrdə ilk dərs günü fotolarını paylaşanlar da az deyil. Bəs görəsən, 1 sentyabrda ilk dəfə məktəbə gedən tanınmışlar o günləri necə xatırlayır?**

**Millət vəkili, DAK həmsədri Sabir Rüstəmxanlı** ilk dəfə dərsə getdiyi günü belə xatırlayır: "Məktəbimiz kəndin ən hündür yerində idi, ağ bina idi, 30-cu illərdə tikilmişdi. Ora mənə bir məbəd kimi görünürdü və məni daim özünə çəkirdi. Ətrafdakı yeddi kəndin uşaqları o məktəbə gəlirdi. Məktəbin həyətində ağacdan asılmış bir kotan parçası var idi. Zəng əvəzi onu dəmirlə döyəcləyirdilər, səsi bütün yeddi kəndə yayılırdı. İndiki elektrik zənglərinin səsi ancaq məktəbdə eşidilir. Kəndin azanı da kilsə səsi kimi o zəng idi. Mən sonradan "Məktəb zəngi" adında şeir də yazmışdım, hələ də o səs qulaqlarımda cingildəyir.

Mən 3-4 yaşlarımda artıq oxumağı öyrənmişdim deyə, elə bilirdim məktəbə hazıram. 5 yaşımda bütün kitab-dəftərimi aldım və səhər tezdən hava açılan kimi məktəbə yollandım. Bir neçə gün gedəndən sonra müəllimlər dedilər ki, sən tez gəlmisən, get 2 il sonra gələrsən. 6 yaşım olanda yenə getdim və müəyyən xahiş-minnətdən sonra məni məktəbə götürdülər. 1952-ci il idi. Bir dəfə səhərin açılmasını gözləmədən, alaqaranlıqdan durub getmişdim məktəbə. Dərslərimi yaxşı oxuyurdum, 10-cu sinfə qədər nəinki aşağı qiymət, hətta "4" də almamışam. Çünki məktəbə getməyəndə kənddə uşaqları təsərrüfatda işlədirdilər. Məktəb bizi bundan azad edirdi deyə məktəbə çox həvəslə gedirdim. İndi o məktəbin yerində yeni məktəb binası tikilib, ancaq onun həyətində əkdiyimiz ağaclar hələ də qalır".

**Xatirələri yaddaşında silinməz izlərlə qalsa da, Sabir Rüstəmxanlının məktəbli vaxtlarından bircə fotosu belə qalmayıb:** "Doqquzuncu sinfə qədər bircə dənə də fotom yoxdur. Kənddə fotoqraf yox idi, şəkil çəkdirmək üçün gərək rayona gedəydin. İlk dəfə komsomola keçəndə şəkil çəkdirmişəm, ona görə uşaqlığım yalnız başqalarının gözündə qalıb. Bu daha yaxşıdır ki, özünü necə istəsən o cür təsəvvür edirsən, olduğundan daha yaraşıqlı olduğunu düşünürsən".

**Valideynləri müəllim olan tanınmış astroloq Səbuhi Rəhimlinin isə məktəb haqqında öncədən təəssüratları var imiş:** "Mən Tərtər rayonunun Seyidimli kəndində birinci sinfə getmişəm. Valideynlərim hər ikisi müəllim olduğuna görə mənim ilkin təəssüratların artıq var idi. Məktəb bizim evə yaxın olduğu üçün məni heç kim aparmadı, özüm getdim. Daha əvvəl də valideynlərimə görə getmişdim deyə yolu bilirdim. Anam Aidə Əkbərova ibtidai sinif müəllimi olub və mən onun sinfində oxumuşam. Sinifdə onunla rəsmi danışmalı olurdum. Valideynlərim müəllim olduğuna görə hərfləri, 100-ə qədər saymağı bilirdim, çoxlu şeir, hətta Hikmət Ziyanın təmsillərini əzbərləmişdim. İlk dərs günündə bunlardan birini əzbərdən dedim".

**"Ayna-Zerkolo" qəzetlərinin redaktoru Elçin Şıxlı da ilk dərs günü həyəcanını hələ də unutmayıb:** "Valideynlərim əlimdən tutub apardılar 190 nömrəli məktəbə, getdim oturdum, dərsə başladıq. Elə bir qeyri-adilik olmadı. 1964- cü ildə birinci sinfə başlamışam. Təbii ki, həyəcan var idi, təzə bir mühitə düşmüşdük, həyatımızda yeni bir səhifə açılırdı. Məktəbimiz şəhərin mərkəzi küçələrindən birində idi, indi küçənin adı heç yadımda qalmayıb".

**Media hüququ eksperti Ələsgər Məmmədli ilk dəfə 1975-ci ildə məktəbə gedib: "Mən ailəmizdə beşinci uşaq idim. Məndən böyüklərin hamısı məktəbə getdiyinə görə mən də çox istəyirdim bunu. Odur ki, 1975 -ci ilin 1 sentyabrı mənim üçün iplə çəkilən günlərdən idi. Atam müəllim olduğuna görə məktəb mənə doğma idi. Məni ilk dəfə məktəbə anam aparmışdı. O zaman indiki kimi deyildi. Ağdamın ucqar bir kəndi olan Quzanlıda, 8 illik məktəbdə birinci sinfə başlamışam. Məktəbimiz köhnə bir bina idi və çiy kərpicdən tikilmişdi.**

İlk sinif müəlliməm Oqtay müəllim idi, çox iri cüssəli bir adam idi və bizim kimi xırda uşaqlar üçün vahiməli görünürdü. Amma mehriban insan idi. Məktəbə gedəndə yazıb-oxumağı bildiyimdən ciddi bir fərqlilik yadımda qalmayıb. Amma yeni uşaqlarla dost olmaq, yeni insanlar tanımaq maraqlı gəlirdi mənə. Hətta xatırlayıram ki, ilk qış tətilinin 12 günlük olması mənə çox uzun bir müddət kimi gəlmişdi və dərsin başlamasını səbirsizliklə gözləyirdim".

**ATV telekanalının "Gündəlik" layihəsinin rəhbəri, BDU-nun jurnalistika fakültəsinin müəllimi Nəmənd Rüstəmov da 1 sentyabrı Bilik günü kimi qeyd edənlərdəndir:** "1986-cı ildə 1 sentyabrda Salyan rayonunun Qarabağlı kəndində orta məktəbin ilk sinfinə getdim. Əslində məktəbə gedəndə demək olar ki, bütün hərfləri bilirdim. Kitabdakı bütün şeirləri də... Amma müəllimlərdən qorxurdum. İlk 3 sinifdə müəllimim Validə Abbasova olub. Və əminəm ki, anamdan sonra ən çox sevdiyim və hörmət etdiyim qadın olub o adam. Çox təmkinli, savadlı və dözümlü adam idi. Uşaq yaddaşı ağ kağız kimidir. Özüm də sonradan BDU-da jurnalistika fakültəsində müəllim kimi çalışmağa başladım və müəllimliyin nə qədər çətin olduğunu canımda hiss elədim. O ki qaldı 6-7 yaşlı uşaqlarla işləmək. Dəcəl, amma bacarıqlı və fəal şagird olmuşam. Əminəm mən müəllimlərimi sevdiyim və fəxr etdiyim kimi onlar da mənimlə fəxr edirlər".

**"Yeni Müsavat" qəzetinin müxbiri Emil Salamoğlu da 1 sentyabrda dərsə gedib:** "Sentyabrın 1-də Lənkəranda 4 saylı rus məktəbində Azərbaycan sektorunda oxumağa başlamışam. Səhər anam məni geyindirib məktəbə apardı. Təzə paltar, yeni mühit, adam həvəsli olur. Sinif otağında tanışlıq başladı. Həyəcan da öz yerində. Anam əvvəldən demişdi ki, bax bura məktəbdir, ağlamaq olmaz. O bilirdi ki, bağçada oxuyanda özümü yaxşı aparmışam. Özü də həmişə yaradıcı işlərdə, tədbirlərdə başda gedirdim. Amma yenə də sinif otağını tərk edəndə kənardan xəlvətcə izləyirdi ki, birdən ağlasam dərhal yanıma gəlsin. Hər şey yaxşılığa bağlandı, evə gələndə təbrik yağışına qərq olduq, sonra da məclis qurdular. Əla gün idi".

❑ **Nərgiz LİFTİYEVA**

# "Ebola" virusu dünyanı təhdid edir

## Səhiyyə Nazirliyi sərhəd-keçid məntəqələrinə tapşırıq verib

**Dünyada "ebola" təhlükəsi davam edir. Afrikanın daha bir ölkəsi Seneqalda bu virusa yoluxma halı qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, "ebola" virusuna yoluxanların sayı 3069 nəfərə çatıb, 1500-dən çox insan isə dünyasını dəyişib. Virusdan ölüm göstəricisi 90 faiz təşkil edir.**

ÜST "ebola"nın yayılması ilə bağlı qorxunc proqnozlar səsləndirib. Təşkilatın mütəxəssislərinin fikrincə, bu xəstəliyə yaxın zamanda 20 mindən artıq insan yoluxa bilər.

Qərbi Afrikada qeydə alınmış epidemiyanın episentri hazırda qonşu ölkələr Qvineya, Syera Leon və Liberiya sayılır.

Dünya alimlərinin fikrincə, səhiyyə orqanları bu virusun qarşısını vaxtında ala bilməsələr uzun illər onunla mübarizə aparmaq məcburiyyətində qalacaqlar.

Qərbi Afrikada "ebola" virusuna qarşı vaksin axtaran elm adamlarından 5 nəfəri sözügedən virusa yoluxaraq dünyasını dəyişib. Vəziyyətin təhlükəli həddə çatması səbəbindən müxtəlif ölkələrdə fərqli tədbirlər əl atılır.




Konqo Demokratik Xalq Respublikasında senat üzvlərinə yollanan fərmanda "ebola" virusunun yayılmasına mane olmaq məqsədilə əl verib görüşməkdən imtina edilməsi tələb olunub.

Xatırladaq ki, "ebola" adı verilən virus - tər, qan, tüpürcək yolu ilə yayılır. Virusun qarşısını almaq üçün hazırda heç bir vaksin mövcud deyil. Xəstəliyin simptomları qızdırma, baş ağrısı, qusma və ishaldır. Xəstəliyin ağırlaşma mərhələsində insanlarda göz, qulaq və burun qanaxmaları müşahidə edilir.

Bu arada ABŞ-da "ebola" virusuna qarşı vaksinin insanlar üzərində sınaqlarının ilk mərhələsinin iki həftədən sonra keçirilməyə başlanacağı barədə məlumatlar yayılıb. Əvvəllər sınaqların ilin sonunda başlanması nəzərdə tutulurdu, lakin yaranmış kəskin vəziyyətlə əlaqədar, sınaqları sürətləndirmək qərara alınıb.

Öz növbəsində Azərbaycanda da bu virusun ölkəyə gəlməsinin qarşısını almaq üçün müxtəlif qurumlar tərəfindən tədbirlər görülür.

Respublika Taun Əleyhinə Stansiyadan verilən məlumata görə, Səhiyyə Nazirliyi tərəfindən sərhəd keçid məntəqələrinə müvafiq tapşırıqlar verilib. Taun Əleyhinə Stansiyanın Laboratoriya şöbəsinin müdiri Musa Cahanovun sözlərinə görə, "ebola" virusu ilə bağlı Ağ Ciyər Xəstəlikləri İnstitutunda yer ayrılıb: **"Sərhəd keçid- məntəqələrində ölkəyə daxil olan şəxslərlə, xüsusilə Afrika ölkəsindən gələnlərlə sorğu aparılır, şübhəli bir hal aşkarlanarsa müayinə olunur. Hələ ki heç kimdə xəstəlik aşkarlanmayıb. Şübhəli bir hal olarsa, xüsusi qaydalara uyğun olaraq həmin şəxslər Ağ Ciyər Xəstəlikləri İnstitutunda ayrılmış yerdə hospitallaşdırılır. Qaynar xəttə də müraciətlər daxil olur. Hər bir zəng araşdırılır".**

Dərs ilinin başlanması ilə əlaqədar Afrikadan gələn tələbələrin müayinəsi məsələsinə gəlincə, Musa Cahanov deyir ki, Azərbaycanda Nigeriyadan olan tələbələr təhsil alır: **"Bununla bağlı sərhəd keçid məntəqələrinə məlumat verilib, orada sanitar karantin məntəqələri fəaliyyət göstərir. Onlar orada tibbi müayinədən keçəcəklər, əgər hansısa əlamətlər aşkarlansa, dediyim kimi, Ağ Ciyər Xəstəlikləri İnstitutunda yerləşdiriləcək. Əgər aşkarlanmasa belə həmin şəxslərin bütün koordinatları, oxuduğu təhsil müəssisəsi, ünvanı, telefonu götürülür və bu xəstəliyin gizlilik dövrü müddətində** *(bu 2 gündən 21 günə kimi davam edə bilər)* **bu müddətdə xəstəlik aşkar olunarsa xüsusi ayrılmış yerlərdə müalicəyə cəlb olunacaq. Müayinə isə Respublika Taun Əleyhinə Stansiyada həyata keçirilir".**

❑ **N. LİFTİYEVA**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 219 (5928) 2 sentyabr 2014*




## Gülməkdən ölənlər

Gülməkdən ölmək - çox nadir ölüm növüdür, amma tarixdə belə hadisələr baş verib. Bizim eradan əvvəl belə bu səbəblə ölənlərə rast gəlmək mümkündür. Bu şəxsləri tanımasanız da, tarixdə gülməkdən ölən şəxsiyyətlər olub. İlk dəfə tarixdə yunan filosofu Xrisipp (e.ə. III əsrdə yaşayıb) uzunqulağını kefli halda görərək gülməkdən həyatını itirib. Məşhur kahin və yunan din adamı hesab edilən Kalxas da gülməkdən ölüb. O, e.ə. XII əsrdə yaşayıb. Öz yetişdirdiyi üzümdən alınan şərabı dadmağa bir sıra din adamlarını dəvət edir. Yığıncaqda qonaqlardan birinin onun şərəfinə dediyi sözlər Kalxası güldürür və həmin an həyatını gülməkdən itirir. 1989-cu ildə danimarkalı həkim Ole Bentzen kinoteatrda "Vanda adlı balıq" komediyasına baxarkən zalda gülməkdən ölüb. Şotland yazıçısı və tərcüməçi Tomas Urkuhart hakimiyyətə II Çarlzın qayıtdığını eşidərkən gülməkdən ölüb. Başqa bir hadisə isə 1975-ci ildə Aleks Mişel adlı birinin başına gəlib. Deməli, o, " Kan Fu tayfaları " adlı filmin 5-ci epizodunu izləyərkən düz 25 dəqiqə dayanmadan gülmüşdü. Şiddətli gülməkdən vəfat edən mərhumun həyat yoldaşı, ərinin son dəqiqələrinin bu cür şən keçməsinə görə həmin şirkətə öz minnətdarlığını bildirib. Gülüşdən ölmək infarktın bir növüdür, amma bütün qəhqəhələr faciəli deyil. Gülmə təzyiqi aşağı salır, stressi azaldır və yaddaşı gücləndirir.

# Dünyanın ən kədərli pişiyi

Sosial mediada dünyanın ən kədərli pişiyi hesab edilən Takerin şəkli yayılıb. 1 yaşlı pişik Vaşinqton ştatında yerləşən heyvan sığınacaqlarından birində yaşayır. Sığınacağın işçiləri isə Takerə görə narahatçılıq keçirdiklərini deyiblər. Onlar bildirirlər ki, pişik daima kədərli baxdığına görə ona sahib çıxan insan tapılmayacaq. Baxıcı Ceysi pişiyin şəkillərini çəkərək sosial şəbəkələrdə paylaşıb. Taker az bir müddət ərzində istifadəçilərin sevimlisinə çevrilib. Unikal baxışlara sahib olan Takerin ilk yiyəsi ona baxmaq üçün imkanı olmadığından heyvanlar üçün nəzərdə tutulmuş sığınacağa verib. Kənardan daima kədərli görünməyinə baxmayaraq pişik çox sevimli görünür.



# Kasıb ata 8 yaşlı qızını ərə verdi

Əfqanıstanın Balh şəhərində yaşayan 8 yaşlı qız 12 yaşlı oğlanla evləndirilib. Uşaq evliliklərinin tez-tez rast gəlindiyi Əfqanıstanda 8 yaşlı qızın atası 2 min dollar aldıqdan sonra övladını başqa bir ailəyə gəlin göndərməyə razılaşıb. Mina adlı qız hələ evliliyin nə olduğunu anlamır. Atası isə maddi vəziyyətləri pis olduğundan qızını evləndirməyə məcbur qaldığını deyib: "Kəndin ağsaqqallarına maddi vəziyyətimin pis olduğundan danışdım. Qızıma baxa bilmədiyimi dedim. Onlar da Minanı evləndirmək barəsində mənə məsləhət verdilər. Hər kəs 2 min dollar aldıqdan sonra ailəm üçün də hər şeyin yaxşı olacağını deyirdi. Mən də deyilənlərlə razılaşdım".

12 yaşlı Sərdar isə evliliyin nə olduğunu soruşanlara "sadəcə xoşbəxt həyat istəyirəm" deyə cavab verir. Sərdarın anası oğlunun və 8 yaşlı qızın evləndirilməsini doğru hesab edir. Onların birlikdə xoşbəxt böyüyə biləcəklərini deyir.

Əfqan qanunlarına görə ölkədə erkən yaşda evlənmək qadağandır. Lakin heç də hamı bu qanuna məhəl qoymur. Daha çox kasıb ailələr qızlarını tez evləndirməyə çalışırlar.





## Adın nədir? Məhəmməd...

Ötən il Norveçin paytaxtı Osloda dünyaya gələn oğlanlara ən çox Məhəmməd adı verilib. Bu barədə Norveç Statistika Bürosu məlumat yayıb. Statistika Bürosunun açıqlamasında bildirilir ki, ötən 4 il ərzində də Məhəmməd Peyğəmbərin adı Norveçdə valideynlərin övladlarına ən çox verdiyi adlardan biri olub. Bildirilir ki, Osloda 4,8 min adam Məhəmməd adını daşıyır. İkinci yerdə Yan, üçüncü yerdə isə Per (Pyotr, Piyer, Piter) adları yer alıb. Belə ki, ötən il paytaxt Osloda 4667 nəfər oğlan uşağına Yan, 4155 nəfərə isə Per adı verilib. 2012-ci ildə isə Yan daha məşhur ad olub. Həm il uşaqlara ən çox verilən adlar siyahısında Məhəmməd adı ikinci yerdə idi. Qeyd edək ki, Norveç əhalisinin sayı 5 milyondur. Onlardan cəmi 10,9%-i Allahın varlığına inanır.




**QOÇ** - Həmkarlarınızla, qonşu və qohumlarınızla aranızda soyuqluq gözlənilir. Bu kimi xoşagəlməzlikləri dəf etmək üçün təmkin nümayiş etdirməlisiniz. Nahardan sonra müqəddəs yerlərə baş çəkin.

**BUĞA** - İşgüzar əlaqələri dərinləşdirmək üçün birə-beş qat əzmkarlıq göstərməlisiniz. Qarşılıqlı anlaşma sizin üçün vacib şərtdir. Şəxsi həyatınızda mühüm rol oynayan adamlarla ünsiyyəti qoruyun.

**ƏKİZLƏR** - Maddi problemləriniz qabardığından bütün sahələrdə daxili süstlük sizi tərk etmir. Lakin usanmağa dəyməz. Ən azı ona görə ki, saat 14-dən sonra bu yönümdə uğurlu məqamlar yaşayacaqsınız.

**XƏRÇƏNG** - Xoş ovqat qazanmaq üçün bu təqvimdən maksimum istifadə etməlisiniz. Bu istiqamətdə Göy qübbəsi də sizə yardımçı olacaq. Sevindirici xəbərlər, maraqlı məclislər yolunuzu gözləyir.

**ŞİR** - Yeri gəldi-gəlmədi, özünüzü tərif etməkdən vaz keçin. Bu, nüfuzunuza ciddi xələl gətirə bilər. Çalışın ki, ünsiyyətdə olduqlarınıza mərhəmət göstərəsiniz. Səhhətinizə fikir verin.

**QIZ** - Öz bürcünüzün enerjili vaxtı olduğundan bu gözəl ayın ən düşərli bir gününü yaşayacaqsınız. Ələlxüsus da saat 12-17 arası maraqlı sövdələşmələrin iştirakçısına çevrilə bilərsiniz.

**TƏRƏZİ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda xoşagəlməzliklər baş qaldıra bilər. Sonrakı müddətdə isə nəzərdə tutduğunuz planları reallaşdırmaqda çətinlik çəkməyəcəksiniz.

**ƏQRƏB** - Hər mənada düşərli gündür. İstər qarşılıqlı münasibətlərdə, istərsə də şəxsi büdcənizin dirçəlməsində uğura yiyələnəcəksiniz. Axşam isə doğmalarınıza baş çəkməyiniz yaxşı olar.

**OXATAN** - Sağlamlığınızla bağlı bir neçə problemlə rastlaşma ehtimalınız var. Atmosferin bu çirkli çağında səhhətinizi xüsusilə toz-torpaqdan qorumalısınız. Digər işlərinizi təxirə də sala bilərsiniz.

**OĞLAQ** - Bu təqvimdən başlayaraq ürəkaçan dövranınız start götürəcək. Daha heç bir gərginliklə qarşılaşmayacaqsınız. Ulduzlar nahardan sonra büdcənizdə artım olacağını da bildirir.

**SUTÖKƏN** - Sevinc dolu hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, büdcənizdə ciddi artım da olsun. Amma yersiz qərarlar çıxarmaq fikrindən uzaq olun. Həmkarlarınızla dil tapmağa çalışın.

**BALIQLAR** - Saat 16-ya qədər əsəblərinizi qoruya bilsəniz, sonrakı müddəti rahat şəraitdə başa vuracaqsınız. Ümumiyyətlə, yaxşı olar ki, bu gün qeyri-ənənəvi, riskli işlərdən uzaq olasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Məşhur qadın rokçu İŞİD-ə qoşuldu



Son zamanlar İngiltərə mediasının gündəmində ən önəmli məsələlərdən biri cihadçı qadınlardır. "The Sun" və "Daily Mirror" qəzetlərinin xəbərlərinə görə, İngiltərənin kəşfiyyat xidməti olan Mİ6 cihadçı qadınlar haqqında araşdırma aparır. İki uşaq anası olan rokçu Sally Jones İŞİD-ə qoşulmaq üçün ölkəsini tərk edib. Kəşfiyyat əməkdaşları hələ də iki uşaq anası olan qadını axtarır. O, terrorçularla birləşdiyi haqda video çəkərək sosial mediada paylaşıb.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.000